**AZƏRBAYCAN RESPUBLIKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**VƏFA HÜSEYN QIZI MEHDİYEVA**

# İNCƏSƏNƏT FƏNLƏRİNİN İNTEQRATİV TƏDRİSİNƏ KULTUROLOJİ METODOLOGİYANIN TƏTBİQİ

**6219.01 – Kulturologiya və onun ümumi məsələləri**

*Sənətşünaslıq üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün* hazırlanmış dissertasiyanın

## AVTOREFERATI

**BAKI – 2015**

**İş Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunda yerinə yetirilmişdir**

**Elmi məsləhətçi:** *tarix elmləri doktoru, professor*
**Fuad Teyyub oğlu Məmmədov**

**Rəsmi opponentlər:** *fəlsəfə üzrə elmlər doktoru, professor*
**Əlikram Mirhəsən oğlu Tağıyev**

*sənətşünaslıq üzrə elmlər doktoru, professor*
**Cəmilə Yusif qızı Həsənzadə**

*pedaqogika üzrə elmlər doktoru, professor*
**Tamella Əli qızı Bağırova**

**Aparıcı müəssisə:** **Azərbaycan Dövlət Pedaqoji Universiteti**

Dissertasiyanın müdafiəsi 2015-ci il_06__ayının __23_____saat_______ Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində FD 02.091 Dissertasiya Şurasının İclasında keçiriləcəkdir.

Ünvan: Bakı, AZ 1065, İnşaatçılar prospekti 39.

Dissertasiya ilə Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____"___________2015-ci ildə göndərilmişdir.

**Dissertasiya şurasının elmi katibi:** **F.R.Məmmədova**
*kulturologiya üzrə fəlsəfə doktoru, dosent*

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Birləşmiş Millətlər Təşkilatının inkişaf proqramında qəbul edilmiş insan inkişafı göstəricilərindən ən mühümünün məhz əhalinin təhsilinin inkişaf səviyyəsi ilə bağlı olması ilə əlaqədar, mədəniyyətin əsası olan təhsilin ölkənin mədəni siyasətinin effektivliyindən asılılığı vurğulanır. Belə ki, məktəbdə təhsil alan şagirdlərin həyat fəaliyyətinin əsas hissəsi təlimdir. Şagirdin təlim fəaliyyəti, onun səmərəli təşkili, intensivliyi, məhsuldarlığı və səmərəliliyinin təmin edilməsi pedaqoji ictimaiyyəti daim narahat edir. Məktəblilərin təlim prosesinin təşkilinə yeni kulturoloji metodologiyanın tətbiq edilməsi təlimin intensivləşdirilməsi, mənimsəmənin fəallaşdırılması, mənimsənilən biliklərdən həyatda yararlanma effektinin artırılmasına, təlimin səmərəliliyinə, müstəqil qərar qəbul edən liderlərin yetişdirilməsinə, son nəticədə isə, insanların mədəni fəallığının artırılmasına xidmət edir. Təhsil - mədəniyyətin inkişafı üçün strateji əhəmiyyət daşıyır. Yüksək mənəvi mədəniyyət şəxsiyyətin mənəvi kamilləşməsinə yardım edən vicdan və humanist etika anlayışlarını da əhatə edir. Dünya elmi nailiyyətləri və humanist etik dəyərlərə əsaslanan insanın təhsil və tərbiyəsinin ən yüksək səviyyəsi – rifah və xoşbəxt həyata doğru gedən yoldur. Təhsil səviyyəsinin effektivliyi və tərbiyənin uğurla təşkil edilməsi dövlətin milli prioritet vəzifəsi hesab olunur. Bu, cəmiyyətin mədəni potensialının artırılmasına yardım edir. Elm və təhsilin inkişafı siyasi və iqtisadi azadlıq mühitinin yaradılması ilə müşayiət olunur, həmçinin insanın yaradıcı inkişafını təmin edir. Təhsil, tərbiyə və maarifin müasir elm və yüksək texnologiyalara əsaslanan prioritetləri özünütəhsil və özünütərbiyə üçün geniş imkanlar açır, yüksək mədəniyyətin formalaşdırılması üçün ilkin şərait yaradır.

Təhsil mədəniyyətin inkişafı üçün strateji əhəmiyyət daşıyır. Təhsil yeni nəsillərin şüurlu ictimai həyatı və əmək fəaliyyətinə hazırlanmasının başlıca formasıdır. O, elmi biliklərə istinad edərək, mədəniyyətin yaradıcısı və daşıyıcısı olan insanın hərtərəfli inkişafına əsaslı təsir göstərir. Yüksək mənəvi mədəniyyət şəxsiyyətin mənəvi kamilləşməsinə yardım edən vicdan və humanist etika anlayışlarını da əhatə edir. Tədris prosesinə kulturoloji yanaşma tədris

prosesinin dəyərə çevrilməsini intensivləşdirir, tədrisin yaradıcıqla təşkil edilməsinitəmin edir.

Azərbaycan təhsilində aparılan məzmun islahatlarının əsas məqsədlərindən biri tədris yükünün şagirdlərin fizioloji imkanlarına uyğunlaşdırılması, eyni konsepsiyanın bir neçə elm sahəsi üzrə öyrənilməsi zamanı təkrarların qarşısının alınması, fənlərin inteqrasiyası yolu ilə izafi materialın öyrənilməsinə sərf edilən vaxtın azaldılması, tədrisin məhsuldarlığının təmin edilməsidır.

Kurrikulum sənədinin tələblərinə görə, şagirdin tədris fəaliyyətinin dəyərə çevrilməyən hissəsi və ya entropiyası konkret lokal tədris fəaliyyətinin geriləməsi, başqa sözlə, deqradasiyası ilə nəticələnir. Hər bir qabiliyyət fəaliyyət zamanı inkişaf etdiyinə görə, təlimin şagirdin həyat təcrübəsinə daxil olması, dəyərə çevrilməsi və qazanılmış lokal biliklərin bütövləşməsi üçün, onun real həyat şəraitini əks etdirən zəngin bir müstəvidə baş verməsi vacibdir. Bu, fənlərin tədrisinin quruluş prinsipini kökündən dəyişməyin zəruriliyini aktuallaşdırır.

İnsan inkişafının etik-estetik tərəfləri müasir təhsilin zəruri tələblərindən biri olduğu üçün, musiqi, təsviri sənət və texnologiya (əmək hazırlığı) fənlərinin tədrisindəki inteqrativlik və onun şagirdin məhsuldar fəaliyyətinə çevrilməsi məsələsi məzmun baxımından mühüm əhəmiyyət daşıyır.

İncəsənət əsaslı, xüsusilə də musiqi, təsviri sənət və texnologiya (əmək hazırlığı) fənlərinin tədrisində inteqrasiyanın zəruriliyi haqqında bir çox alimlər müxtəlif dövrlərdə dəyərli fikirlər söyləmişlər. XVII əsrdə yaşamış böyük çex pedaqoqu Y.A.Komenski, məşhur rus pedaqoqu S.T.Şatski, görkəmli alim M.S.Kaqan, musiqiçi alim-pedaqoq N.Terentyeva, tədqiqatçılardan N.Kiyaşşenko və N.Leyzerov və digər alimlər fənlərarası əlaqənin yüksək forması olan inteqrasiyanın incəsənət əsaslı fənlərin tədrisinə tətbiqi barədə dəyərli fikirlər söyləmiş, həmin biliklərin inteqrativ fənn daxilində bütövləşməsi imkanlarının forma və metodları haqda tədqiqatlar aparmış və bu ideyanın daha da genişləndirilməsi üçün zəngin materiallar hazırlamışlar. Təhsil Sektorunun İnkişafı Layihəsi üzrə həyata keçirilən bütün tədbirlərdə artıq yaradılmış və gələcəkdə təkmilləşdirilməsi nəzərdə tutulan kurrikulum sənədində milli xüsusiy-

yətlər nəzərə alınmaqla, beynəlxalq standartlara uyğunlaşdırılması, eləcə də, burada inteqrasiya məsələlərinə xüsusi əhəmiyyət verilməsi tövsiyə olunur.

**Mövzunun aktuallığı.** Tədris prosesinə kulturoloji yanaşma tədris prosesinin dəyərə çevrilməsini, tədrisin yaradıcııqla təşkil edilməsini nəzərdə tutur. Azərbaycan təhsilində aparılan məzmun islahatlarının əsas məqsədlərindən biri tədris yükünün şagirdlərin fizioloji imkanlarına uyğunlaşdırılması, eyni konsepsiyanın bir neçə elm sahəsi üzrə öyrənilməsi zamanı təkrarların qarşısının alınması, fənlərin inteqrasiyası yolu ilə izafi materialın öyrənilməsinə sərf edilən vaxtın azaldılması, tədrisin məhsuldarlığının təmin edilməsidır. Kurrikulum sənədinin tələblərinə görə, şagirdin tədris fəaliyyətinin dəyərə çevrilməyən hissəsi və ya entropiyası konkret lokal tədris fəaliyyətinin geriləməsi, başqa sözlə, deqradasiyası ilə nəticələnir. Hər bir qabiliyyət fəaliyyət zamanı inkişaf etdiyinə görə, təlimin şagirdin həyat təcrübəsinə daxil olması, dəyərə çevrilməsi və qazanılmış lokal biliklərin bütövləşməsi üçün, onun real həyat şəraitini əks etdirən zəngin bir müstəvidə baş verməsi vacibdir. Bu, fənlərin tədrisinin quruluş prinsipini kökündən dəyişməyin zəruriliyini aktuallaşdırır. İnsan inkişafının etik-estetik tərəfləri müasir təhsilin zəruri tələblərindən biri olduğu üçün, musiqi, təsviri sənət və texnologiya (əmək hazırlığı) fənlərinin tədrisindəki inteqrativlik və onun şagirdin məhsuldar fəaliyyətinə çevrilməsi məsələsi məzmun baxımından mühüm əhəmiyyət daşıyır. İncəsənət əsaslı, xüsusilə də musiqi, təsviri sənət və texnologiya (əmək hazırlığı) fənlərinin tədrisində inteqrasiyanın zəruriliyi haqqında bir çox alimlər müxtəlif dövrlərdə dəyərli fikirlər söyləmişlər.

Təhsil Sektorunun İnkişafı Layihəsi üzrə həyata keçirilən bütün tədbirlərdə artıq yaradılmış və gələcəkdə təkmilləşdirilməsi nəzərdə tutulan kurrikulum sənədində milli xüsusiyyətlər nəzərə alınmaqla, beynəlxalq standartlara uyğunlaşdırılması, eləcə də, burada inteqrasiya məsələlərinə xüsusi əhəmiyyət verilməsi tövsiyə olunur. Məsələ burasındadır ki, müasir dünyada sosial-mədəni həyatın mürəkkəbliyi və sürəti qlobal düşünmənin əhəmiyyətini artırır. Dərsin məntiqi formada təşkilini nəzərdə tutan “variativ məzmun” ideyası tədrisin dəyərə çevrilməyən izafi biliklərlə yüklən-

məsi imkanlarını aradan qaldırır və mədəni insanın əsas meyarları olan - bilik, bacarıq, mütəşəkkillik, mənəviyyatlılıq və yaradıcı fəaliyyət kimi keyfiyyətlərinin formalaşdırılmasına yadım edir. İncəsənət əsaslı fənlərin tədrisində inteqrativliyin zəruriliyi onunla izah edilir ki, onun vasitəsi ilə şagirddə bəşəriyyətin mədəni-tarixi inkişafı ilə incəsənətin əlaqəsi haqqında təsəvvür və bacarıqların bütöv şəkildə formalaşdılması və obyekt dünyagörüşlü yox, subyekt dünyagörüşlü ekzistensial – obrazlı düşünmə, intuisiya, təxəyyül, hissləri inkişaf etmiş insan tərbiyəsi təmin edilir. Bununla, şagirdin mənəvi-estetik təəssürat və təcrübə toplamağına, bədii fəaliyyət vasitəsi ilə ətraf aləmi dərk etməsinə, anlama imkanlarını dərinləşdirməsinə, öz ideyalarını ümumiləşdirməsi və vaxt itgisinə yol verمədən fəaliyyətinin səmərəli təşkilinə yardım edilir. Nəzərə almaq lazımdır ki, incəsənət üzrə biliklərin mənimsədilməsi həftədə bir saat, ibtidai, əsas və orta təhsil pillələrini əhatə etməklə, mərkəzləşmiş buraxılış imtahanlarına, eləcə də, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının informasiya bankına daxil edilmiş 10-15 sualla bütün qruplar üzrə qəbul imtahan test suallarına daxil edilməsi kütləvi kulturoloji mədəniyyətin inkişafına mühüm töhfələr verməklə yanaşı, həmin fənlərin səmərəsiz tədrisinə sərf edilən külli miqdarda maliyyə vəsaitinin izafi sərfini aradan qaldırar, həmin vəsaitin müəllimlərin sosial problemlərinin və təhsilin digər məsələlərinin həllinə xərclənməsinə imkan yaradar, gənclərimizin daha zəngin, rəqabət qabiliyyətli kulturoloji bilik və bacarıqlarla silahlandırılmasına səbəb olar.

**Tədqiqatın elmi yeniliyi.** Aparılmış tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, indiyə qədər Azərbaycanda kulturoloji metodologiyanın bütövlükdə tədris prosesinə, xüsusilə də incəsənət fənlərinin tədrisinə tətbiqi prosesini aşkarlayan məsələlərin spektrini əhatə edən tədqiqat işi yerinə yetirilməmişdi. Bu tədqiqat ilk dəfə olaraq, Azərbaycan Respublikasının orta məktəblərində incəsənətlə bağlı fənlərin sistemli kulturoloji yanaşmaya əsaslanan inteqrativ tədris modelini təsvir edir və bu barədə aydın təsəvvür yaradır.

İlk dəfə olaraq, respublikanın orta məktəblərində incəsənətin inteqrativ təlimi üçün sistemli kulturoloji yanaşma və kulturoloji metodologiyadan istifadə edilməsinin imkan və xüsusiyyətləri öyrə-

nilmişdir. Kulturoloji metodologiya, və müqayisəli analiz əsasında Azərbaycan Respublikasının orta məktəblərinin inkişaf etdirilməsi üçün elm və təhsil baxımından mühüm əhəmiyyətə malik olan orta məktəb sistemində innovativ dəyişikliklər aparılması məqsədi ilə sistemli kulturoloji yanaşmanın əvəzedilməz əhəmiyyəti aşkar edilmiş və elmi cəhətdən əsaslandırılmışdır. Dissertasiyada incəsənət fənlərinin inteqrativ tədrisi üzrə işin nəzəri və praktik məsələləri kulturoloji metodologiya baxımından sistem şəklində işlənmiş, problem üzrə dərsin və sinifdənxaric işin imkanları araşdırılmış, elmi cəhətdən əsaslandırılmış və səmərəli inkişaf yolları müəyyənləşdirilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi – ümumtəhsil məktəblərində incəsənət fənlərinin tədrisinin kulturoloji problemlərinin həcmini, yerini müəyyənləşdirmək, forma, vasitə və metodlarını işləmək, ümumtəhsil məktəblərində tədris edilən inteqrativ mədəniyyətşünaslıq fənninin şagirdlərdə fəal idrak fəaliyyətinin formalaşdırması və bunun da, onların təfəkküründə dünya, təbiət və cəmiyyətdə baş verən hadisələr arasındakı əlaqələrin dərk edilməsi haqqında bütöv təsəvvür yaratmaqdır. Ümumtəhsil məktəblərində incəsənət fənlərinin inteqrativ tədrisinin nəzəri və praktik imkanları kulturoloji təlim baxımından lazımınca aşkar edilərsə, onların tədris prosesinə tətbiqi yolları və vasitələri müəyyənləşdirilərsə, musiqi, təsviri incəsənət və texnologiya müəllimlərinin inteqrativ mədəniyyətşünaslıq fənninin tədrisinin nəzəriyyə və praktikasının mənimsədilməsinə dair təkliflər verilərsə, aşağıdakı məsələlər həll edilə bilər:

- şagirdlərin mədəniyyətşünaslıq fənninə dair əsas anlayışlar haqqında bilikləri genişlənər, dəqiqləşər və dərinləşər;
- incəsənət fənnini elmi əsaslarla öyrənməklə, şagirdlər elmi müqayisələr aparmaq vərdişi qazanarlar;
- informasiya ilə əməliyyat aparmaq bacarıqlarına, hər hansı bir problemin həlli zamanı dəlillərin əsaslandırılması üçün: məsələnin tətbiq sahələrini təyin etmək; həmin sahədə əməkdaşlıq prinsiplərini öyrənmək; digər sahələrlə əməkdaşlıq prinsiplərini müəyyənləşdirmək; qarşılıqlı fəaliyyət imkanlarını nəzərdən keçirmək; nəticələri qiymətləndirmək və s. vərdişlərə yiyələrlər;

- hər kəs öz tələbat və ehtiyaclarını ödəyə bilməsi üçün, zəruri olan biliklərin məzmununun müəyyənləşdirilməsini həyata keçirə bilər;

- mövcud bilikləri yeni yaranan şəraitə uyğunlaşdırmaq üçün "texnoloji təfəkkür" adlanan psixi prosesin fəaliyyəti, köhnə biliklərin təxəyyüldə transformasiya edilməsinə və yeni obrazların yaradılmasına yardımı ilə təmin olunar;

- yaradıcı təfəkkürün, yəni nəticə baxımından düşünmək, fikri fəaliyyəti alqoritmləşdirmək, bilikləri seçə bilmək, bilikləri sintez etmək, məsələni müxtəlif elm sahələri baxımından həll etmək, ümumi problemləri həll edə bilmək kimi xüsusiyyətlərinin mövcudluğu təmin edər;

- gələcəkdə onlarda bədiiliyə bələdlik şəxsiyyətin formalaşmasına öz təsirini göstərər;

- fənlərin tədrisi prosesində "ehtiyac-imkan" və ya "tələb-təklif" modelinin tətbiqi özünü tamamilə doğruldar;

- problemin həllinin kulturoloji prinsiplərə əsaslanması - bu günkü, eləcə də, gələcək tələbat və istəkləri dərk etmək əsasında məqsədləri müəyyən etmək, məqsədə çatmağın texnologiyasını seçmək, psixo-sosioloji sintez aparmaq, psixoloji komfortluq şəraiti yaratmaq və s. təmin edər.

Tədqiqatın vəzifələri - inteqrativ tədris fənninin imkanlarının formalaşdırılması yolu ilə inteqrasiya əsasında öyrənmə fəaliyyətinin fəallaşdırılması məqsədi ilə:

- musiqi, təsviri incəsənət və texnologiya (əmək hazırlığı) fənlərinə aid müştərək anlayışların kulturoloji mahiyyətinə aid ideyaları araşdırmaq və onların orta ümumtəhsil məktəblərindəki yerini müəyyənləşdirmək;
- proqram və dərsliklərdə problemin qoyuluşunu araşdırmaq;
- problemin mövcud kulturoloji, nəzəri, pedaqoji və metodik ədəbiyyatda, həmçinin müasir məktəb təcrübəsində qoyuluşu vəziyyətini təhlil etmək;
- incəsənət fənlərinin inteqrativ tədrisinin kulturoloji, psixoloji və pedaqoji-metodik əsaslarını işləmək;
- orta məktəbdə incəsənət əsaslı musiqi, təsviri incəsənət və texnologiya (əmək hazırlığı) fənlərinin inteqrativ tədrisinin kul-

turoloji, nəzəri və praktik problemlərinin mahiyyətini açmaqla, onlardan istifadənin yollarını aşkarlamaq;

- bədii məzmun üzrə iş aparmaqla, müştərək anlayışların lüğətinin hazırlanması, onların mənasının şərhinin verilməsinə nail olmaq;
- bədii obrazın kulturoloji təhlili üzrə şagirdlərin bilik, bacarıq və vərdişlərinin formalaşdırılması sistemini yaratmaq;
- bədii məzmunun səs, söz, rəng və fiqur ifadələrinin mənimsədilməsi yollarını işləyib hazırlamaq;
- incəsənət əsərlərinin mənimsədilməsi yollarını (incəsənət əsaslı musiqi, təsviri incəsənət və əmək hazırlığı üzrə biliklər əsasında) müəyyənləşdirmək;
- obrazlılıq yaradan vasitələrin praktik nümunələr üzərində iş aparmaqla, mənimsədilməsi yollarını aşkar etmək;
- bədii obrazların kulturoloji təhlili zamanı islam dəyərlərinin təzahürü və onların şagirdlərə mənimsədilməsi yollarını müəyyən etmək;
- sinifdənxaric və məktəbdənkənar tədbirlər vasitəsi ilə bədii əsərlərin xüsusiyyətlərini mənimsətmək;
- mövzu baxımından qabaqcıl iş təcrübəsinə, eksperiment materiallarına və tədqiqatın nəticələrinə əsaslanaraq, incəsənət əsərlərinin tədrisinin nəzəri və praktik problemlərini daha səmərəli qurmaq məqsədi ilə müəllimlər üçün faydalı tövsiyyələr hazırlamaq.

**Tədqiqatın obyekti** – incəsənət fənlərinin inteqrativ tədrisi zamanı kulturoloji dünyagörüşün formalaşdırılması prosesi və incəsənət fənlərinin tədrisinin kulturoloji problemləridir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın nəzəri və praktik əhəmiyyəti ondan ibarətdir ki, əsərdə irəli sürülən fikirlər, elmi müddəalar musiqi, təsviri incəsənət və texnologiya (əmək hazırlığının) fənlərinin inteqrativ tədrisi metodikasını yeni ideyalarla zənginləşdirərək, məzmun, metod və iş sisteminin elmi əsaslar üzərində yenidən qurulmasına imkan verəcək, tədqiqatdan alınan nəticələr musiqi, təsviri incəsənət və texnologiya fənlərinə sərf edilən praktik səmərəsi olmayan tədris saatları və maliyyə resurslarının daha məhsuldar istifadə olunması təmin ediləcək. Kulturoloji metodologiyaya əsaslanan incəsənət kurrikulumunun məzmun standart-

larının hazırlanmasında və qiymətləndirmə indiqatorlarının tərtibində tədqiqatın nəticələrindən istifadə oluna bilər. Ali və orta ixtisas məktəblərinin müəllimləri dissertasiyanın nəticələrindən bəhrələnə bilərlər.

**Tədqiqatın metodoloji əsasını** – Fuad Məmmədovun dialektikanın idrak nəzəriyyəsi, məzmun və forma kateqoriyaları, o cümlədən, Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsinə əsaslanan metodologiyası, eləcə də tarixi yanaşma, həmçinin, məktəb və təhsilə aid sənədlərdə istifadə edilmiş nəzəri müddəalar, görkəmli kulturoloq, pedaqoq, psixoloq və sənətşünasların fundamental tədqiqatları təşkil edir. Qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsi məqsədi ilə aşağıdakı tədqiqat metodlarından istifadə olunmuşdur. Tədqiqat prosesində respublikanın müxtəlif regionlarının 55 ümumtəhsil məktəbində 300 sinif, 800 müəllim 4000 şagirdin fəaliyyəti üzərində müşahidələr aparılmış, onların incəsənətə və incəsənət fənlərinin tədrisinə münasibəti öyrənilmişdir.

Müsahibə prosesində əldə olunmuş faktlarla əlaqədar müəyyən dəqiqləşmələr aparmaq məqsədi ilə orta ümmumtəhsil məktəblərində 600 musiqi, təsviri incəsənət və əmək hazırlığı müəllimi və 4000 şagirdlə müsahibə aparılmışdır.

Problemlə əlaqədar olan qərar və göstərişlər, incəsənət nəzəriyyəsi və praktikasına dair materiallar, həmçinin, tədqiqatla bağlı pedaqoji, metodik, psixoloji, fəlsəfi və kulturoloji ədəbiyyat öyrənilib nəzəri təhlil yolu ilə, müqayisəli şəkildə araşdırılmışdır. Sənədlərin öyrənilməsi yolu ilə orta ümumtəhsil məktəblərinə aid musiqi, təsviri incəsənət, əmək hazırlığı üzrə proqram, müntəxəbatlar, metodbirləşmə protokolları, maraq kurslarının jurnalları və digər sənədlər öyrənilib təhlil edilmişdir.

Anket sorğusu ilə Bakının Səbayıl, Suraxanı, Binəqədi, Nizami rayonları, Sumqayıt şəhəri, İsmayıllı, Oğuz və digər bölgələrin 300 musiqi, təsviri incəsənət və texnologiya (əmək hazırlığı) müəllimi, eləcə də 500 şagirdlə sorğu keçirilmişdir. Kulturoloji eksperiment üç mərhələdə aparılmışdır: birinci mərhələdə (1998-2002-ci illərdə) müəyyənedici eksperiment, ikinci mərhələdə (2003 - 2005-ci illərdə) öyrədici eksperiment, üçüncü mərhələ isə (2006-2010-cu illərdə) yoxlayıcı eksperiment təşkil edilmişdir.

Riyazi və statistik metodlar yolu ilə aparılan sorğu və eksperimental metodlardan alınan nəticələr ümumiləşdirilərək qruplaşdırılmış, öyrənilənlər arasında kəmiyyət asılılığı müəyyənləşdirilmişdir. Həmin metodlar eksperimentin göstəricilərinin dəyərləndirilməsinə, nəticələrin etibarlılığına, nəzəri ümumiləşdirmələrin düzgün aparılmasına imkan yaratmışdır.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun nəzdində fəaliyyət göstərən koordinasiya mərkəzində qeydiyyatdan keçmiş və yerinə yetirilmişdir. Tədqiqat mövzusu ilə bağlı respublika elmi-praktik konfranslarda və seminarlarda çıxışlar edilmişdir. Əsas müddəalar müəllifin çap etdirdiyi 26 jurnal məqaləsi, 1 monoqrafiya, 2 dərs vəsaiti və 2 fənn proqramında öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, 4 fəsil, 15 yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**"Giriş"**-də araşdırmaya cəlb olunan mövzunun aktuallığı, elmi yeniliyi, məqsəd və vəzifələri, metodoloji əsası, nəzəri-praktik əhəmiyyəti, aprobasiyası və başqa məsələlər haqqında qısa və yığcam şəkildə danışılmışdır.

**I fəsil - Incəsənət fənlərinin inteqrativ tədrisinin kulturoloji baximdan elmi-nəzəri əsasları adlanır** və dörd fəsli əhatə etməklə araşdırılmışdır. Birinci yarımfəsildə - Kulturoloji metodologiyanın, ikinci yarımfəsildə - İnteqrativ kurrikulumun mahiyyəti, üçüncü yarımfəsildə - İncəsənət fənlərinin inteqrativ tədrisinin didaktik əsasları, dördüncü yarımfəsildə isə - İncəsənət fənlərinin inteqrativ tədrisinin psixoloji əsasları tədqiq edilmişdir.

**Birinci yarımfəsil "Kulturoloji metodologiyanın mahiyyəti"** adlanır. Kulturologiyanın idrak metodu sistemli yanaşmaya əsaslanır. Sistemli yanaşma dedikdə, mədəniyyətin bütöv sosial sistem kimi fənlərarası, inteqrativ və kompleks öyrənilməsini nəzərdə tutulur. Kulturologiyanin metodologiyasının məqsəd, mahiyyət və imkanlarını izah etmək üçün mədəniyyəti dərk etməyin elmi metodlarını əsaslı şəkildə təhlil etmiş və əsaslandırmış dünya şöhrətli

azərbaycanlı alim F.Məmmədovun tədqiqatlarına müraciət etmək lazım gəlir[1]. Onun fundamental tədqiqatlaraında insanın və bəşəriyyətin mədəni xüsusiyyətlərinin, inkişaf qanunlarının və tarixinin öyrənilib mənimsənilməsində kulturoloji təhsilin əhəmiyyəti xüsusi vurğulanmış, şəxsiyyətin mənəvi ekologiyasının formalaşdırılması, gənc nəslin potensial istedad və qabiliyyətinin inkişafının innovasiya prosesləri açıqlanmışdır. Kulturologiyanın əsas idrak metodu olan sistemli yanaşma imkan verir ki, mədəniyyət bütöv sosial sistem kimi, dialektik şəkildə bir-biri ilə əlaqədə olan tədqiqat prinsiplərinin birliyi əsasında, fənlərarası bir kompleks şəklində öyrənilsin. Müəllif mədəniyyətin təhlilini aşağıdakı kimi şərh edir:

- mədəniyyətin məntiqi təhlili – hadisələrin daxili qanunauyğunluğunu ardıcıl mühakimələr əsasında anlamağa imkan verir və şüurlu nəticələrə gətirir;
- mdəniyyətin keyfiyyət təhlili - müəyyən tarixi dövrdə konkret cəmiyyətin xüsusiyyətlərini və səmərəliliyini aşkarlamağa imkan verir;
- mədəniyyətin kəmiyyət təhlili - inkişafının fəaliyyət, keyfiyyət və proqnozlaşdırma səciyyəsini qiymətləndirmək üçün zəruridir;
- mədəniyyətin struktur təhlili - ayrı-ayrı sahələr və onların qarşılıqlı əlaqələrinin bütöv mədəniyyət orqanizmində araşdırılmasını nəzərdə tutur;
- mədəniyyətin funksional təhlili - ekstrosomatik (yəni, insanın bioloji təbiətindən yuxarıda duran) sistemli fəaliyyəti təmin edən praqmatik xarakteristikaların, mahiyyətlərin dərk edilməsi ilə əlaqədar olan hadisələrin araşdırılmasıdır;
- mədəniyyətin genetik-tarixi təhlili - inkişafın müəyyən zaman ərzində tədqiq edilməsini nəzərdə tutur;

---

[1] Məmmədov F. Kulturologiya effektiv həyat və fəaliyyətə aparan yol kimi, Bakı: Çıraq, 2007, 432s.
Мамедов Ф. Культурология, как путь к эффективной жизнедеятельности, Баку: Абилов, Зейналов и сыновья, 2006, 576 с.
Мамедов Ф. Культура управления - опыт зарубежных стран, Баку: «Апостроф» Чап Еви, 2009, 720 с.

- mədəniyyətin məkani təhlili - müəyyən coğrafi ərazidə mədəniyyətin vəziyyət və inkişafını nəzərdə tutur;

- müxtəlif mədəniyyətlərin müqayisəli təhlili - ümumi cəhət və səciyyəvi xüsusiyyətləri müəyyənləşdirməyə imkan verir;

- mədəniyyətin situativ təhlili –insanın həyat fəaliyyətinə təsir göstərən (obyekt, subyekt) konkret vəziyyət və ya dəyişən şəraiti öyrənməyə və dərk etməyə imkan verir;

- mədəniyyətin antropoloji təhlili – etnoqrafik və etnoloyi xüsusiyyətləri, həyat tərzi, adət-ənənələri sosial münasibətlər sistemi mədəniyyətin inkişaf dinamikasını və onların nəsildən-nəsilə ötürülməsi mexanizmini öyrənməyə imkan verir;

- mədənihyyətin psixoqrafik təhlili - insanların irsən ötürülən mədəni keyfiyyətləri, həyat tərzi, adət-ənənələri, sosial-mədəni mühiti ilə şərtlənən motiv və niyyətlərinin öyrənilməsinə yardım edir;

- mədəniyyətin demoqrafik təhlili – insanların yaşı, cinsi, təhsili, gəlir səviyyəsi həyat uzunluğu və digər parametrləri haqqında məlumat almağa yardım edir.

Mədəniyyətin tərkib hissəsi olan təhsildə bir çox fənlərin inteqrasiyası eyni metodologiyaya əsaslanır. Dəyərlər səviyyəsində olan dəyişikliklər mədəniyyətə aid olmaqla, təhsil sistemləri, əxlaq və idealları da əhatə edir. Mədəni dəyərlərin formalaşması üç səviyyədə baş verir : fərdi, ictimai və dövlət səviyyəsində.

Alimin tədqiqatlarında kulturoloji təhsil nəticəsində aşağıdakıların əldə edilməsi labüd hesab edilir:

- cəmiyyətin sosial-siyasi kapitalı olan yüksək mədəniyyətli, zəruri bilik və bacarıq səviyyəsinə, məsuliyyət və müstəqilliyə, mənəviyyat və yaradıcı fəaliyyətə malik vətəndaşların formalaşması;

- mürəkkəb sosial-siyasi problemləri düzgün konseptual görmək, diaqnoz etmək, strateji planlaşdırmaq və sistemli həll etmək gələcəyi düzgün görmək;

- mənəvi insani münasibətlərin təsdiqi;

- ruhi mədəniyyətlərin yeniləşdirilməsinin təmin edilməsi

- intellektual mədəniyyətin inkişafı;

- etik mədəniyyətin inkişafı;

- bədii mədəniyyətin inkişafı.

- məsuliyyət mədəniyyətinin inkişafı;

- istehlak mədəniyyətinin inkişafı;
- informasiya seçmək mədəniyyətinin inkişafı;
- ekoloji mədəniyyətin inkişafı;
- beynəlxalq əməkdaşlığın inkişafı;
- sosial mədəniyyətin bərqərar olması;
- əhalinin yüksək sosial fəallığına nail olmaq;
- innovativ fəaliyyətin inkişafı;
- düzgün sosial, siyasi və iqtisadi qərarların qəbul edilməsi;
- cəmiyyətin həyat keyfiyyəti və maddi rifahının artması;
-əhalinin mənəvi sağlamlığının qorunması və uzunömürlülüyün təmin edilməsi;
- siyasi stabilliyə nail olunması və s.

Mədəniyyətin tərkib hissəsi olan təhsildə bir çox fənlərin inteqrasiyası eyni metodologiyaya əsaslanır. Dəyərlər səviyyəsində olan dəyişikliklər mədəniyyətə aid olmaqla, təhsil sistemləri, əxlaq və idealları da əhatə edir.

**I fəslin "İnteqrativ kurrikulumun mahiyyəti"** adlanan **ikinci yarımfəsli**də Azərbaycan Respublikasının ümumtəhsil sisteminin məqsəd və vəzifələrinin məzmunu, pedaqoji prosesin və qiymətləndirmə sisteminin ümumi prinsiplərini əhatə edən "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurrikulum)" sənədi mövzu baxımından təhlil edilmiş və təlimi daha səmərəli təşkil etmək məqsədi ilə fənlər arasındakı lokal maneələri aradan qaldırıb, qlobal düşüncə tərzinin formalaşdırılması, biliyin daha maraqlı təqdim edilməsinə imkan yaradan inteqrativ kurrikulumun əhəmiyyətinin sübutuna cəhd edilmişdir. Belə ki, Azərbaycanda Təhsil Sahəsində İslahat Layihəsi daxilində nəzərdə tutulmuş tədbirlərdən biri də təhsilin məzmununun yeniləşdirilməsi və kurrikulumların tərtibidi[2]. Müxtəlif zamanlarda aparılan tədqiqatlar, o cümlədən, xarici ekspertlərin gəldikləri nəticələr göstərir ki, mövcud təhsil sistemi iqtisadi və sosial mühitin tələblərinə cavab verən bilik və bacarıqlara malik məzun hazırlamır; keçən müddət ərzində tədris proqramları köhnəlmiş və həddən artıq yüklənmiş, bunlara daxil olan

[2] İnteqrativ Kurrikulum, Azərbaycan Respublikası Təhsil Sektorunun İnkişafı Layihəsi, Arnhem, Niderland, 2006, 22s.

məlumatların böyük hissəsi bazar iqtisadiyyatı və demokratik cəmiyyətin tələblərindən geri qalmışdır; mövcud proqramlar sistemi inkişaf üçün bilik və bacarıqların sadədən mürəkkəbə doğru mütərəqqi irəliləyişini və fənlərin inteqrasiyasını təmin etmir; fənlər çərçivəsində verilən bilik və bacarıqlar, əsasən sərt prosedurlara, fakt və məlumatların əzbərlənməsinə yönəlmişdir, şagirdlərdə düşünmə, nəticəçıxarma, müstəqil fikir yürütmə, əsaslandırma bacarığını formalaşdırmaqdan çox uzaqdır; dərslik və oxu materiallarından istifadə imkanları aşağı səviyyədədir; əsas və köməkçi tədris materialları çatışmır; şagirdlərin informasiya-kommunikasiya texnologiyalarından istifadə bacarığı zəifdir; müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi üzrə innovativ müxanizmlər kifayət qədər deyil; ixtisasartırma prosesi hələ də mexaniki xarakter daşıyır, tələbdən çox təklif üzərində qurulur; pedaqoji institutlarda səmərəli təlim və tədrisin təşkili üçün zəruri avadanlıq və materiallar çatışmır; təhsil sektorunda vəsait bölgüsünün düzgün aparılması təlim nəticələrinə mənfi təsir göstərir, kommunal xərclərə ayrılan vəsait zəruri tələbləri ödəmir; ölkə miqyasında şagirdlərin qiymətləndirilməsi sistemi olmadığından onların ümumi təhsil üzrə təlim nəticələrinə dair etibarlı məlumat mənbəyi mövcud deyildir və hazırki qiymətləndirmə sistemi şagirdlərin bacarıqlarına deyil, onların hafizə imkanlarına yönəlmişdir; təhsil sistemində strateji təhlillər və məqsədyönlü planlaşdırma zəif aparılır, təhsilin idarə olunması üzrə məlumat sistemi qurumu yaradılmamışdır və digər. Musiqi, təsviri incəsənət və texnologiya (əmək hazırlığı) fənlərinin hər birinə həftədə bir saat ayrılması və bir-birini təkrarlayan standartlar üzrə təqribən eyni fəaliyyətlərin yerinə yetirilməsi, fikrimizcə, bağışlanılmaz bir zaman israfçılığına, eyni zamanda, külli miqdarda maliyyə vəsaitinin səmərəsiz sərfinə gətirib çıxarır. Həmin fənlər üzrə kursun sonunda imtahan və ya məktəb rəhbərliyi, təhsil idarəsi tərəfindən hər hansı bir ciddi yoxlama və nəzarətin olmaması həmin fənləri tədris edən müllimlərin məsuliyyətini azaldır və tədris keyfiyyətinin daim aşağı səviyyədə qalmasına, eləcə də həmin fənlərin "ikincidərəcəlilər" səviyyəsinə endirilməsinə səbəb olur.

Sosial qabiliyyətlərin inkişaf etdirilməsi məqsədi ilə ümumtəhsil kurrikulumlarında həddən artıq yüklənmə, inteqrasiyanın

çatışmaması və şagirdyönümlü təlim metodları əvəzinə fənnyönümlü və müəllimyönümlü passiv təlim metodlarından istifadə edilməsi musiqi, təsviri incəsənət və texnologiya fənlərinin ayrı-ayrı tədris edildiyi bir halda özünü daim göstərəcəkdir. Belə bir vəziyyətdən çıxmaq üçün məsələyə tamamilə yeni bir aspektdən baxmaq, həmin fənlərin ümumi təmas nöqtələrinin yeni imkanlarını tapmaq və inteqrativ bir fəndə birləşdirmək vacibdir. Fikrimizcə, həmin fənnin "mədəniyyətşünaslıq" adlandırılması məsələnin mahiyyətinə tamamilə uyğun ola bilər.

Nəzəri biliklərin həyata tətbiqi bir çox sahələr üzrə əldə edilmiş anlayışların inteqrasiyasını tələb edir. Başqa sözlə, bacarıq - yaxşı mənimsənilmiş biliklərin müxtəlif şəraitə uyğun transformasiya olunmuş şəkildə tətbiq edilməsidir. Belə bir yaradıcı fəaliyyət idrak prosesində, yəni biliklərin ilkin mənimsənilməsi prosesində biliklərin inteqrativləşdirilməsini tələb edir. Təcrübədə çox zaman bir sahə üzrə əldə edilmiş biliklər digər sahədə tətbiq edilərkən effektiv nəticələr verir. Belə ki, fakt və hadisələrin öyrənilməsi zamanı mənimsənilən biliklərin təəssürata çevrilməsi insanın gələcək aktiv fəaliyyəti üçün zəmin yaradır. Əgər bilik təəssürat yaratmırsa, onun təxəyyülə gedən yolu qapanır, bu isə təfəkkürün fəaliyyətini də məhdudlaşdırır. Təəssüratın stimullaşdırılması üçün biliyin digər sahələrlə əlaqəli və inteqrativ fəaliyyət zəminində təqdim edilməsi vacibdir. Bilik mənimsədilərkən ondan necə istifadə ediləcəyinin proqnozlaşdırılması çətindir. Buna görə də, biliklər elə mənimsədilməlidir ki, o, təfəkkürün fəaliyyətini inteqrativləşdirmə vasitəsi ilə fəallaşdırsın. Bu vəziyyətdən ən səmərəli çıxış yolu inteqrtiv kurrikulumların tərtib edilməsidir. Belə ki, inteqrativ biliklərin çoxsahəli və rəngarəng bacarıqlar formalaşdırması – isbata ehtiyacı olmayan həqiqətdir.

"İnteqrativ kurrikulum bütün həyatı boyu şagirdləri təlimə hazırlayan təhsil yanaşmalarını əhatə edir... təhsil ilə bağlı orqanlar təhsilə diskret və bölünmüş fənlər kimi deyil, XXI əsrdə həyatın tələb etdiyi bacarıqların təkmilləşdirilməsi prosesi kimi baxmalıdır"[3] .

[3] İnteqrativ Kurrikulum, Azərbaycan Respublikası Təhsil Sektorunun İnkişafı Layihəsi, Arnhem, Niderland, 2006, 22s.

Həmin normativ sənədlərdə inteqrativ kurrikulumun aşağıdakı xüsusiyyətləri qeyd olunur: hollistik yanaşma; konsepsiyalararası əlaqə; fənlərin və ya mövzuların birləşməsi; bacarıqların inkişaf etdirilməsinə diqqət yetirilməsi; bilikdən istifadə edilməsinə diqqət yetirilməsi; layihələrə diqqət yetirilməsi; bölmələrdən təşkilati prinsip kimi istifadə edilməsi; yalnız dərslikdən deyil, bir sıra təlim resurslarından istifadə edilməsi; şagird və müəllimlər üçün mütəhərrik qrafik; şagirdlərin sərbəst qruplaşması.

Fənlər arasındakı lokal maneələri aradan qaldırıb, biliyin daha maraqlı təqdim edilməsinə imkan yaradan inteqrativ kurrikulum şəxsiyyətin ailədə, cəmiyyətdə və bəşəriyyətin inkişaf tarixində rolunu müəyyənləşdirmək və özününün, eləcə də, başqalarının həyatını daha motivasiyalı etmək barədə düşünməsinə stimul verir. İnteqrasiya olunan təhsil sahələrinin konsepsiya və məzmunu arasındakı ən ümumi əlaqələrin müəyyənləşdirilməsi, biliklərin müxtəlif vəziyyətlərdə istifadə edilməsi, araşdırmaların təkmilləşdirilməsi və mənalı anlama təlimin təbii prosesi olsa da, inteqrativ kurrikulumun ən prioritet vəzifəsidir. Qlobal düşüncə tərzinin formalaşdırılması üzərində qurulan inteqrativ kurrikulum şagirdləri biliklərin passiv istehlakçısından dünyaya təfəkkür, yaradıcılıq nöqteyi-nəzərindən və məqsədli baxan vətəndaşa çevirir. İnteqrativ kurrikulum məzmun və konsepsiyalardan ümumi məna çıxararaq, onları mənalandırmaq və öz dəyərlər sırasına daxil etmək məqsədi daşıdığına görə, burada texnoloji cəhətdən təcrid olunmuş faktları öyrənmək və bilməkdən daha çox bacarıqlara yiyələnmək mühüm əhəmiyyət kəsb edir. Çünki, təhsilin məqsədi - müxtəlif situasiyalarda fakt və hadisələrdən istifadə etmək, tədqiqi araşdırmalarda birbaşa olaraq şəxsən iştirak etməkdir. İnteqrativ kurrikulumun həyata keçirilməsi həm şagirdlərarası, həm də müəllimlə şagirdlər arasında əməkdaşlığı, kiçik və böyük qruplarda birgə fəaliyyəti, dərsdə ilkin mənbələrdən və resurslardan istifadəni, şagirdlər tərəfindən mühüm məsələlər üzrə qərar qəbul edilməsində fəal iştirakını, şagirdlərin məsuliyyəti öz üzərinə götürmə cəsarətinin inkişafını, müəllimlərin istiqamətverici olmalarını, təlim prosesinə yüksək diqqət yetirilməsini, bacarıqların formalaşdırılmasına yönəlməsini, hər bir şagirddə daxili intizamın formalaşdırılmasını, rəngarəng təlim formalarının tətbiq edilməsini,

fəaliyyət istiqamətlərinin çoxcəhətliliyini nəzərdə tutur. İnteqrativ kurrikulum mühüm tədqiqat suallarının qoyulmasına və onun ətarfından geniş araşdırmalar aparılmasına şərait yaradır. İnteqrativ kurrikulum tətbiq edilərkən, təhsilin məqsədinə hadisə və təzahürləri öyrənmək, bilmək deyil, həm də əldə olunmuş bilik, bacarıq və dəyərləri müxtəlif şəraitdə istifadə etmək, araşdırmaları təkmilləşdirmək, eləcə də, anlamaq daxildir. Belə kurrikulum şagirdlərə öyrənmə zamanı müxtəlif fənlər arasında bilik və konsepsiya səviyyəsində dəyərli əlaqələr yaratmaqda kömək göstərir. inteqrasiya formalarının incəsənət əsaslı fənlər üzrə tətbiq edilməsi məzmunun qismən azalmasına, şagirdlərə daha geniş düşünmək imkanları yaradılmasına, təlimin fəallaşdırılıb daha əyləncəli edilməsinə, xırda mövzuların ümumiləşdirilməsinə, məzmunun artıq materiallardan azad edilməsinə, eyni konsepsiyanı müxtəlif fənlərdə təkrar öyrənmənin qarşısını almağa, təlimin müxtəlif mərhələləri və konsepsiyalarının əlaqələndirilməsinə, intellektual bacarıqların inkişafının stimullaşdırılmasına imkan yaradır.

**Birinci fəslin "İncəsənət fənlərinin inteqrativ tədrisinin didaktik əsasları"** adlanan üçüncü yarımfəslində - Mədəniyyətşünaslıq fənni üçün nəzərdə tutulmuş bilik sahələrinin hansı formada təqdim edilməsi yolları və yaşauyğunluq məsələləri fizioloq və psixoloqlar, eləcə də metodistlər tərəfindən işlənməsi, məsələnin müsbət həll edilməsi, yeni kursun yeni kurrikulumlarının yaradılması, yeni dərsliklərin tərtibi və yeni məzmunlu dərslərin təşkilinin mühüm əhəmiyyəti qeyd edilmiş, mədəniyyətşünaslıq fənninin fəal bir prosesin əsas elementləri əsaslandırılmışdır. Hal-hazırda ayrı-ayrı elm sahələrinin bütöv şəkildə mənimsənilməsinə yanaşmaların yeni mərhələsi baş verir. Ayrı-ayrı elm sahələrinin bütövlüyü dedikdə, müxtəlif hadisələrin müstəqil olaraq paralel mövcud olması yox, onların ümumi daxili əlaqələrindən yaranan bütöv əlamətlərin tam yeni, daha mükəmməl və tamamlanmış şəkildə formalaşması nəzərdə tutulur. Təlimdə inteqrasiya iki mənada işlənir. O, bir tərəfdən təlimin məqsədi, digər tərəfdən isə təlimin vasitəsidir. Birinci mənada, inteqrasiya ətraf aləm haqqında təsəvvürün bütövləşməsi təəssüratının yaradılmasına xidmət edir, ikinci mənada isə, müxtəlif fənlər üzrə biliklərin yaxınlığının ümumi təmas nöqtələrinin

tapılması ilə həmin bilik sahələri üzrə geniş bilik qazanmağın zəruriliyini təsdiq edir. Hal-hazırda fənlərin inteqrasiyası təlim materialının mənimsənilməsi naminə şagirdlərə (insanlara) daha güclü və effektli təsir etmək, pedaqoji kollektivin fəaliyyətinin yüksəldilməsi məqsədi ilə yaradıcı qüvvələrini artırmaq vasitəsi kimi tətbiq edilir. İnteqrasiya elmlərin fundamental və tətbiqi sahələrində elmlərin diferensiallaşması fonunda yaranmışdır. Belə ki, elm sahələrinin dərinləşməsi, biliklərin genişlənməsi, elmdaxili ixtisasların çoxalması və onlara tələbatın artması sahə mütəxəssislərinin peşə maraqlarının daralmasına o dərəcədə mane olur ki, hətta onlar aid olduqları vahid elm sahəsi üzrə bir-birini anlamaq iqtidarinda belə olmurlar. Beləliklə, inteqrasiya fənlər arasında ümumi sistemi inkar etmədən, onun daha da təkmilləşdirilməsinə, boşluqların aradan qaldırılmasına, qarşılıqlı əlaqə və qarşılıqlı asılılığın dərinləşdirilməsinə istiqamətlənir. Burada pedaqogika elminin əsas vəzifəsi ondan ibarət olur ki, fənlərin ayrı-ayrı element və hissələrini təlimin məqsəd və vəzifələrinə uyğun olaraq vahid bir tam halında birləşdirsin. İnteqrasiya bir neçə istiqamətdə və bir neçə səviyyədə ola bilər. İnteqrasiya zamanı məzmunun seçilməsinin bəzi xüsusiyyətləri var: ənənəvi fənlərin məzmunundan və yeni məzmundan istifadə etməklə. Bunların kəsişməsi müxtəlif nəticələr verə bilər. Məs.: yeni fənlərin yaranması; bir və ya bir neçə fənnin məzmununu yeniləşdirərək yeni xüsusi kursların yaranması; əvvəlki fənlərin saxlanması şərti ilə yeni mövzuların yaranması; müxtəlif səviyyə və xarakterli bir inteqrativ dərs və s. İnteqrasiyanın ən əsas nəticəsi insanlarda müxtəlif fənlər vasitəsi ilə ümumi dəyərlərin formalaşdıdırlmasıdır. Belə qlobal dəyərlərə nitq, dil, mədəniyyət, ünsiyyət, insanların qarşılıqlı münasibəti və sair aiddir. Hal-hazırda inteqrasiyanın müxtəlif üsullarından istifadə olunur. Bu o demək deyil ki, bütün inteqrasiya üsulları uğurlu ola bilər. Bu o demək deyil ki, onların birini tətbiq edib, digərindən imtina etmək lazımdır. Əsas mahiyyət yaş xüsusiyyətlərinin və təhsil səviyyələrinin nəzərə alınması şərti ilə inteqrasiya sistemini tətbiq etməkdir. Təlimdə diferensiallığı inkar etməyən, əksinə onu daha da zənginləşdirən bir sistemin tətbiqi bütöv dünyagörüşlü və geniş erudisiyalı insanların tərbiyə edilməsinə yardım edə bilər. Belə insanlar müxtəlif problemlərin həllinə qeyri ənənəvi

yollarla yanaşır, ona “yeni gözlə” baxa bilir, özünün mövcud biliklərini müstəqil sistemləşdirmək qabiliyyətinə malik olurlar. Təlimin məqsədi böyüməkdə olan insanın təsəvvüründə ətraf aləm haqqında bütöv bir obrazın yaradılmasıdır; yəni insan təbiətin bir hissəsidir və bütün elmlər təbiətin bu və ya digər sahəsini əks etdirir. İnteqrasiya məqsəd olaraq, böyüməkdə olan insana dünyanın ayrı-ayrı hissələrinin əlaqəliliyini əks etdirən biliklər verməli, ona dünyanı vahid bir tam kimi təsəvvür etməyi öyrətməlidir. İnteqrasiya ənənəvi fənlər üzrə alınan biliklərin təmas nöqtələrində yeni təsəvvürlərin yaradılması vasitəsidir. Hər şeydən əvvəl bu əlaqələrin yaradılması biliklərin təzələnməsi üçün vacib və zəruridir. Eyni zamanda, inteqrasiya klassik tədris fənlərini əvəz etməməlidir, yalnız onu vahid sistemdə birləşdirməlidir. İbtidai və əsas təhsil pilləsində inteqrasiya kəmiyyət mahiyyəti daşıyır. Tədris insanların təəssüratlarını zənginləşdirmək və sistemləşdirmək məqsədini daşıyır. İnsanlar ən zəruri elm sahələri üzrə fundamental biliklərə yiyələrək biliklərini tədricən daha da artırılması, sistemləşdirilməsi, ardıcıllaşdırılması və dərinləşdirilməsi ilə məşğul olurlar. İnsan qazandığı həmin bilikləri təsəvvüründə bütövləşdirə bilməsi üçün sintez qabiliyyətinə yiyələnməlidir. Ümumi orta təhsil bütün bilikləri mənimsətmək iqidarinda deyil, lakin çox şey haqqında hər şeyi və ya çox şey haqqında şox şeyi öyrədə bilmək imkanlarına malikdir. Təlimin bu məqsədini nəzərə alarıqsa, yeni inteqrasiya səviyyəsi haqda düşünmək lazım gəlir.Son nəticədə, inteqrasiya dünyagörüşün bütövləşməsinə xidmət etməlidir. Bu bütövləşmə dünyaya və bu dünyanı öyrənərək yaşayan insana, yerlə göyün vəhdətinə, təbiətlə insana aiddir. Təlimdə inteqrasiya üçün əlverişli olan və əlverişli olmayan faktorlar vardır. Bu faktorlar inteqrasiyanın taktikasını müəyyən edir. Ənənəvi təlimdə insanın intellektual inkişafının potensial imkanlarından kifayət qədər istifadə edilməməsi inteqrasiyanın pozitiv imkanları kimi qeyd edilməlidir. İnteqrasiya üçün ən birinci neqativ hal təlim fənlərinin azlığıdır. Təlim fənlərinin azlığını mənimsənilmiş kiçik məzmunda dünyanın mənzərəsini, onun hissələri arasındakı əlaqələrini əks etməsi ilə əvəz etmək olar. İkinci neqativ faktor olan inteqrativ kursun bütün yaş nümayəndələri üçün aydın, anlaq və maraqlı olmamasıdır. Göründüyü kimi, təhsilin inteqrativ

məzmunu müəyyən çətinliklərlə bağlıdır. Lakin elə faktorlar var ki, bu məsələnin həllini asanlaşdırır. Bu, bir müəllimin bir neçə fənni tədris etməsidir. Bu faktı müsbət hal kimi qiymətləndirmək olar. Bu baxımdan, ibtidai təhsil pilləsində inteqrativ təlimə keçid daha asandır. Əgər əsas və orta təhsil pilləsində inteqrativ dərsləri həyata keçirmək üçün hansı addımların atılmasının zəruriliyindən söhbət aparılarsa, bu artıq ümumtəhsil məktəblərində məzmun və metod yeniliyinin əsas vəzifələrindən biri kimi qiymətləndirilməlidir. İnteqrativ dərslərin tətbiqi və həmin kursların yaradılması Azərbaycan təhsilində aparılan islahatın tərkib hissəsini təşkil edir. İncəsənət əsərlərinin tədrisi zamani müəllimin qarşısına aşağıdakı pedaqoji-metodik səciyyəli məsələlərin qoyulub həll edilməsi tövsiyə edilir: a) şagirdlərdə incəsənət nümunələrini "oxumaq", yəni anlamaq bacarığı formalaşdırmaq; b) həmin əsərlərin köməyi ilə şagirdlərə nəzəri məlumat vermək; c) əsərlər əsasında şagirdlərin mənimsəmə texnikalarını təkmilləşdirilmələrinə nail olmaq. İncəsənət əsərlərinin tədrisində müəlliflərin sənətkarlığını şagirdlərə mənimsətmək üçün onların yaş və bilik səviyyələrinə uyğun sistemli iş aparılması irəli sürülür. Müxtəlif – istər ibtidai, istərsə də orta təhsil pilləsində incəsənət əsərinin ritmi, ahəngi üzərində şagirdləri işlətmək vacibdir. Sonra incəsənət əsərinin ritmik xüsusiyyətlərini musiqidə - intonasiyanın, qüvvətli və zəif vurğuların növbələşməsini, rəsm əsərində elementlərin müntəzəm yerləşdirilməsi, şeirdə isə, heca və qafiyəni, əsərin ideyasının bədii formaya uyğunluğunu başa salmağa daha çox fikir vermək lazım gəlir. Poetik mətndə və musiqi əsərində fasilənin əhəmiyyətini xüsusi qeyd etmək vacibdir. Hər bir poetik, musiqi və ya təsviri incəsənət əsərinin dili onun əsas mahiyyətinin dərk edilməsinə kömək edən vasitədir. Poetik sözün, musiqi səsi və intonasiyasının və ya rənglərin xüsusiyyətlərinin öyrədilməsində emosional əhval-ruhiyyənin yaradılması da vacib şərtlərdən sayılır. Ruhlandırma, emosional yüksəliş bədii əsərlərin mənimsənilməsinin zəruri şərtlərindən biridir. Bdii əsərlərin mövzusunun, obrazlılığının, dilinin, janrının və digər xüsusiyyətlərinin öyrədilməsində ənənəvi təlim üsullarına əsaslanmaqla yanaşı, yeni yeni interaktiv təlim üsullarına da müsraciət olunmalıdır. Bədii əsərlərin öyrənilməsinə həsr olunmuş dərslərin forması haqqında axtarışlar dərs-seminar,

dərs-konfrans, dərs-təqdimat, dərs-layihələrin müdafiəsi, dərs-referatın müdafiəsi və s. haqqında geniş söhbət açmaq olar. Bu dərs formalarında bədiiliyin müxtəlif problemləri şərh edilərək, şagirdlərə çatdırılır. Bədii əsərlər mürəkkəb struktura malikdir və onun bütün məsələlərini ümumtəhsil məktəbi şagirdlərinə öyrətmək qeyri-mümkündür. Hətta bədii əsərin təhlilinin elə sahələri var ki, ümumtəhsil məktəb şagirdlərinin həyat təcrübəsi onların mənimsənilməsinə hələ hazır deyil, lakin tədrisdə nəzərə alınması vacib olan elə məsələlər var ki, ondan ötüb keçmək mümkün deyil. Bura aşağıdakılar aiddir: forma və məzmuna aid elementlər: kompozisiya, ritm, vəzn, repriza; dil-üslub xüsusiyyətləri, morfoloji və qrammatik elementlərin səviyyəsi, bədii əsərin məzmunu (morfoloji) forma və janr (sintaкtik) xüsusiyyətləri, onların spesifik cəhətləri, oxşar və fərqli əlamətləri, obrazlılıq yaradan vasitələr; bədii əsərdə süjet məsələləri; ənənə və novatorluq və s. kimi nəzəri anlayışlar didaktikanın "sadədən mürəkkəbə doğru" prinsipi üzərində öyrədilir. Bu zaman, tədris olunan bədii əsərin quruluшu nəzərə alınmaqla yanaşı, şagirdlərin inkişaf səviyyəsi də gözlənilir və xüsusilə də, bədii əsərin forması üzrə bilik və bacarıqların aşılanması zəruri hesab edilir.

**İncəsənət fənlərinin inteqrativ tədrisinin psixoloji əsasları** adlanan dördüncü yarımfəasildə ən sadə məntiqi əməliyyatlardan biri olan "anlayışın uyğunlaşdırılması" əməliyyatı təsvir edilmiş, təlimin məzmununu idrak fəaliyyəti əməliyyatlarına uyğun müntəzəm ardıcıllıqla formalaşdırmağın zəruriliyi göstərlmişdir. Psixoloji tədqiqatlar göstərir ki, fənlərarası əlaqələrin ilkin tətbiqi şagirdlərin stimullaşdırılması mahiyyətini daşıyır. Şagird fənlərarsı məsələləri həll etdikcə, öz fəallığını ya məlum biliklərin naməlum əlaqələrinə, ya da mövcud konkret fənlərarası əlaqələr əsasında yeni anlayışların formalaşdırılmasına istiqamətləndirir. Bu zaman fənlərarası əlaqələrin mənimsənilməsi sahəsində artıq mövcud olan təcrübə idrak fəallığına təkan verir. Son zamanlar idrak fəallığı problemi psixoloji tədqiqatların mərkəzi mövzusuna çevrilmişdir. "İdrak fəallığı" anlayışı üç müxtəlif hadisəyə eyni cür tətbiq edilir: fərdin konkret fəaliyyətinə; passivliyin əksi olan vəziyyətə (formal fəaliyyət); təşəbbüsü və ya reaktivliyi ifadə etmək üçün. Deməli, fəaliyyət göstərmək, fəaliyyət göstərməyə hazır olmaq və təşəbbüskarlıq – fəallıq

(aktivlik) kimi təqdim edilir. Bu üç hadisənin ümumi məxrəci və ya bu üç hadisə üçün ümumi olan əlamət enerjinin olması və onun fəaliyyət üçün səfərbər edilməsidir. Burada aktivliyin sinonimi kimi "əqli qüvvə", "əqli enerji", "psixi-əsəb enerjisi" prosesləri çıxış edir. Psixologiyada fəallıq (aktivlik) fəaliyyətlə, xüsusi ilə də fəaliyyətin ehtiyac, maraq, motiv istiqamətləri ilə əlaqələndirilir. İdrak fəaliyyətinin fəallaşdırılması prosesinin mahiyyətini nəzərdən keçirməzdən əvvəl "idrak fəaliyyətinin" növlərini və onların formalaşdırılması üsullarını müəyyənləşdirmək lazımdır. İdrak fəaliyyəti iki növ olur: ümumi və xüsusi. İdrak fəaliyyətinin ümumi növləri müxtəlif sahələrdə müxtəlif biliklərlə əməliyyat aparılarkən istifadə olunur. Məsələn, öz fəaliyyətini planlaşdırmaq bacarığı, onun icrasına nəzarət etmək, nəticə çıxarmaq bacarığı. Bütün məntiqi təfəkkür üsulları (müqayisə, səbəb-nəticə əlaqələrinin araşdırılması, nəticə çıxarılma, isbat və təsnifat üsulları və s.) da ümumi fəaliyyət növlərinə aiddir. Onlar konkret materialdan asılı olmayaraq, xüsusi biliklərdən istifadə zəminində yerinə yetirilir. İdraki fəaliyyətin xüsusi (spesifik) növlərinə yalnız bu və ya digər bilik sahəsində istifadə olunan biliklər aiddir. Məlumdur ki, təlim prosesində həm bu, həm də digər idrak fəaliyyəti üzrə biliklərin məzmunu seçilməli və qeyd olunmalıdır. Belə olmadıqda nəzərdə tutulmuş idraki fəaliyyətin məqsədyönlü olaraq formalaşdırılması həyata keçirilə bilməz. Bununla belə, hər bir idrak fəaliyyətinin növü üzrə məzmunun seçilməsi xüsusi tədqiqat tələb edən bir vəzifədir. Bunu nəzərə alaraq aşağıdakıların üzərində dayanmaq lazım gəlir: təfəkkürün ən sadə məntiqi növlərinin məzmunu; onun tərkibindəki əqli əməliyyatlar; fəaliyyətin xüsusi növləri [4].

Təfəkkürün ən sadə məntiqi növlərinin inkişaf etdirilməsi barədə həm metodik-pedaqoji, həm də elmi ədəbiyyatda kifayət qədər söylənmişdir, lakin hər bir fənn üzrə təfəkkürün məntiqi üsullarının konkret proqramı tərtib edilməmişdir. Nəticədə, şagirdlərin məntiqi təfəkkürünün inkişafı sistemsiz, "ümumi şəkildə", bu işin zəruri əməliyyatlarını bilmədən, müəyyən məzmun və ardıcıllığa

---

[4] Əlizadə Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri, Bakı: Ozan, 1983, 68s.

riayət etmədən, kortəbii inkişaf etdirilir. Bir çox şagirdlər ibtidai təfəkkür əməliyyatlarına hətta yuxarı siniflərdə belə yiyələnə bilmir və nəticədə təqdim edilən tədris materialı sona qədər mənimsənilmir. Bu zaman bir çox səhvlərə yol verilir ki, sonradan onların aradan qaldırılması çətinliklər yaradan böyük maneələrə çevrilir. Bütün səhvlərin, qüsur və maneələrin səbəbi isə məntiqi əməliyyatlardan istifadə edə bilməməkdir.

Ən sadə məntiqi əməliyyatlardan biri : "anlayışın uyğunlaşdırılması" əməliyyatıdır. Hər hansı bir anlayışın bu və ya digər obyektə uyğunlaşdırılması, hər şeydən əvvəl, həmin anlayışın əlamətlərinin müəyyənləşdirilməsini nəzərdə tutur. Yəni, hər hansı bir obyektə müəyyən anlayış vermək istədikdə əvvəl anlayışın əlamətlərini müəyyənləşdirmək, sonra isə onları obyektin əlamətləri ilə uyğunlaşdırmaq lazımdır. Anlayışların uyğunlaşdırılması əməliyyatının texnologiyasına yiyələnməzdən əvvəl, bir neçə məntiqi biliklər və onlardan istifadə əməliyyatlarının mənimsənilməsi vacibdir. Bu məqsədlə aşağıdakı əməliyyatlar aparılır: əvvəl şagirdlər obyektə uyğunlaşdırılacaq anlayışın əlamətlərini müəyyən edirlər; sonra obyektin anlayışa uyğun olacağı şərait müəyyən edilir; növbəti mərhələ zamanı isə, obyektdə həmin əlamətlərin olub-olmaması yoxlanılır. Bunun üçün, hər şeydən əvvəl, xüsusiyyətlər müəyyənləşdirilir. Xüsusiyyətlər müəyyən edildikdən sonra, müqayisə prosesi başlayır. Müqayisə aparmaq üçün aşağıdakı cəhətlər aşkar edilir: əvvəl fərqli cəhətlər; sonra ümumi cəhətlər; daha sonra isə, əsas (əhəmiyyətli) cəhətlər və qeyri-əsas (az əhəmiyyətli) cəhətlər. Bu əsas özül və təməl üzərində təfəkkürün daha mürəkkəb məntiqi əməliyyatları formalaşdırıla bilər.

İbtidai siniflərdə təlimin məzmunu təşkil edilərkən təfəkkürün məntiqi əməliyyatlarının bütün sistemi nəzərə alınmalıdır. Qeyd etmək lazımdır ki, məntiqi əməliyyatların konkret fənn materialı üzərində formalaşdırılmasına baxmayaraq, onlar müstəqil, ümumi və universal xarakter daşıyır. Buna görə də, bir fənn üzrə mənimsənilmiş məntiqi əməliyyatlar, tədris vasitəsi kimi, digər tədris fənlərinə də geniş tətbiq edilə bilər. Bu prosesdə, yəni məntiqi əməliyyatların tətbiqi zamanı fənlərarası əlaqələrin nəzərə alınması vacib şərtdir. Əgər təfəkkürün hər hansı bir məntiqi əməliyyatı əvvəllər formalaş-

dırılmışdırsa, yəni digər fənlərin öyrənilməsi zamanı mənimsənilmişdirsə, bu fənnin öyrənilməsi zamanı bir daha onun yenidən formalaşdırılmasına ehtiyac qalmır. Bu əməliyyatlar həmin biliklərin mənimsənilməsində vasitə rolunu oynayacaqdır. Şagirdlər ilk dəfə mənimsədikləri məntiqi əməliyyatları xüsusi olaraq öyrənməlidirlər. Biliklərin daha mükəmməl mənimsənilməsi idrak fəaliyyətinin "xüsusi əməliyyatların"-ın formalaşdırılmasını nəzərdə tutur. İdraki fəaliyyətin xüsusi əməliyyatları yalnız bu və ya digər fənnə aid olan və ya yalnız həmin fənnin tədrisi prosesində öyrənilən idraki əməliyyat növlərini nəzərdə tutur. İdrak fəaliyyətinin xüsusi, yəni yalnız bir fənnə aid olan əməliyyatları müəyyən fənn materialına aid əməliyyatların formalaşdırılması zamanı mümkündür. Məsələn, incəsənət əsərləri üzərində işləmədən obrazlı təfəkkürü inkişaf etdirmək olmaz. Bu və ya digər bilik sahəsi üçün xarakterik olan bacarıqlar kimi, məntiqi əməliyyatlar da xüsusi olaraq formalaşdırılmalıdır. İdrak fəaliyyətinin bu əməliyyatları həmin elm sahəsinin xüsusi cəhətlərini əks etdirir. Lakin, başqa fənlərin tədrisində də həmin əməliyyatlardan istifadə edilməsi məqsədəuyğun hesab edilir. İdrak fəaliyyətinin xüsusi növləri də bir sıra fənlərlə əlaqədar istifadə edilə bilər. Bu baxımdan, fənlərarası əlaqələr də yalnız məntiqi deyil, həm də xüsusi fəaliyyət növləri üzrə istifadə edilə bilər. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bəzən idrak fəaliyyətinin elə xüsusi əməliyyatlarını formalaşdırmaq ehtiyacı yaranır ki, onlar öyrənilən fənnin imkanlarından kənara çıxsa da, mənimsəməni asanlaşdırır. İdrak fəaliyyəti əməliyyatlarının formalaşdırılması müxtəlif səviyyələrdə reallaşdırıla bilər. Tədqiqat aşağıdakı nəticələrin əldə edilməsinə imkan vermişdir: əvvəla, bədii əsərin qavranılması müəllifin fikrinin aşkar edilməsi və incəsənət növünün, eləcə də bədii əsərin xüsusiyyətinin dərk edilməsini təmin edir; ikincisi, şagird bədii əsərin təhlili zamanı tarixi məlumatları məzmunla uzlaşdırarkən gerçəklik haqqında biliklərə də yiyələnir ki, bu da bədii əsərin başa düşülməsi üçün zəruri bazanın yaranmasını təmin edir.

**II fəsil – "Kulturoloji yanaşma ümumtəhsil məktəblərində incəsənət fənlərinin innovativ təlim metodlarinin elmi əsası kimi"** adlanır və öz əksini aşağıdakı yarımfəsillərdə tapmışdır:

- Mövzu baxımından məzmun problemləri və təcrübədə vəziyyət;
- Incəsənət fənlərinin inteqrativ tədrisi üzrə metodik ədəbiyyatın təhlili;
- Proqram və dərsliklərdə fənlərarası əlaqəyə verilən yer;
- İnnovativ təlim metodlarının effektivliyinin sosiokulturoloji nəticələri.

**İkinci fəslin birinci yarımfəsli "Mövzu baxımından məzmun problemləri və təcrübədə vəziyyət"** adlanır və burada - yaşamaq üçün zərurət yaradan bacarıqların mənimsənilməsi üçün öyrənmə mədəniyyətinin formalaşdırılması və bunun üçün təlimin məzmununun mühüm əhəmiyyətindən bəhs edilir. Belə ki, məzmunun təlim materialına çevrilməsi üçün hər hansı bir məsələnin həlli zamanı kulturoloji prinsiplərə əsaslanmaq vacibdir. Həmin fəaliyyət universal modelin dörd elementini təşkil edir: Məqsəd (fəaliyyətin məqsədi); Planlaşdırma (məqsədə çatmağın planlaşdırılması); Reallaşdırma (uyğun fəaliyyət texnologiyalarının reallaşdırılması); Qiymətləndirmə (alınan nəticələrin qiymətləndirilməsi). Müasir təlimin məzmununa problemlərlə işləmək texnologiyalarından aşağıdakılar aiddir: problemin tipik həlli texnologiyası; ziddiyyətlər texnologiyası; problemlər axını texnologiyası; yeni problemlər texnologiyası. Bu texnologiyalarda aşağıdakı təsvir modelindən istifadə olunur:

Element ⟶ Əlamət ⟶ Əhəmiyyət.

Mədəni insanın mühüm keyfiyyəti olan inteqrasiya texnologiyalarına yiyələnmək - təlimin məzmununda əks olunmalıdır. Bunun üçün: təlimin məzmunu problemə uyğun qurulmalıdır; təlim materialının məzmunu didaktik prinsiplər üzrə uşaqların həyat təcrübəsindən çıxış edərək tərtib edilməlidir; təlim materialı şəbəkəli prinsip üzrə qurulmalıdır; inteqrativ bacarıqlar formalaşdırmaq üçün kompleks problem məsələlər və inteqrativ bacarıqlar daxilində fənlərin üfüqi inteqrasiyasını elə reallaşdırmaq lazımdır ki, bu zaman öyrənmə bacarığı, idraki bacarıqlar və problemləri həll etmək bacarıqları formalaşsın; tələbatları reallaşdırmaq bacarığı və yaradıcı şəxsiyyətin keyfiyyətlərini inkişaf etdirmək; öyrənmə bacarığının bütün komponentlərini inkişaf etdirmək; problemlərlə iş texno-

logiyasını daim nəzərdə saxlamaq [5]. Deməli, bütün yuxarıdakı tələblərə cavab verən və məzmun vahidi funksiyasını yerinə yetirən pedaqoji resurs şagirdlərin layihəsi ola bilər. Şagird layihəsi effektli idarəedici və lider keyfiyyətlərinin formalaşdırılmasını nəzərdə tutur. Bura aşağıdakı keyfiyyətlər daxildir: liderlik mədəniyyəti (güclü məntiq, möhkəm iradə, elmi biliklər, təcrübə və uzaqgörənlik); fəaliyyət sərbəstliyi, qətiyyətlilik və fədakarlıq; məqsədin düzgün müəyyənləşdirilməsi (əldə edilə bilən məqsədləri formalaşdırmaq); dəqiq strateji planlaşdırma, tələb və vasitələrin düzgün təhlili, prioritetləri seçmək bacarığı; idarəetmə texnologiyasının elmi cəhətdən əsaslandırılması; problemləri düzgün başa düşüb dərk etmək bacarığı; işin dəqiq təşkili, fəaliyyət planı hazırlamaq bacarığı; vəzifələr içərisində ən mühümünü seçmək qabiliyyəti; qələbəyə doğru inadlı hərəkət və uğura inam; özünün güclü və zəif cəhətlərini görmək; baqşlıca ziddiyyətlərin aşkar və həll edilməsi; qabaqcadan kulturoloji tədqiqatlar, əməkdaşlıq; resurslardan düzgün istifadə; rolların düzgün seçilməsi və bölüşdürülməsi; insanlarla işləmək bacarığı, dinləmək, inandırmaq və maraqları uyğunlaşdırmaq bacarığı; işlərin idarə edilməsində qayğı və tələbkarlıq; maraqlı olmaq, maraqlanmaq; perspektivləri duymağın zəruriliyi; məsuliyyət mədəniyyəti; hər kəsin şəxsi mədəniyyətini müəyyən etmək bacarığı; obyektiv informasiyanın mövcudluğu; prosesin monitorinqi, nəzərdə tutulmuş planın real və gözlənilən nəticələrə uyğun düzəlişlər etmək bacarığı; gözlənilən nəticələrin proqnozlaşdırılması; nəzərdə tutulmuş planların əməli tətbiqinə yönəlmiş inadlı, vicdanlı zəhmət; liderlik keyfiyyətləri [3,604-630][6].

Bu günün insanı sistemli kulturoloji təhsilə əsaslanıb, gələcəyin pozitiv obrazının formalaşdırılmasına əsaslanan, yüksək idarəçilik texnologiyalarından istifadəyə qabil olmalıdır. İncəsənət fənlərinin inteqrativ tədrisi və ya inteqrasiyası kulturoloji təhsil və kulturoloji maarifləndirməni nəzərdə tutur. O, həm həyati dəyərlərin düzgün başa düşülməsinə, həm də insan və cəmiyyətin proqressiv

---

[5] Мамедов Ф. Культура управления - опыт зарубежных стран, Баку: «Апостроф» Чап Еви, 2009, 720 с. [688].

[6] Мамедов Ф. Культура управления - опыт зарубежных стран, Баку: «Апостроф» Чап Еви, 2009, 720 с. [604].

inkişafına yeni nəzərlə baxılmasına kömək edir. Orta məktəb səviyyəsində kulturoloji təhsil və maarifləndirməni nəzərdə tutan incəsənət fənlərinin inteqrasiyası və ya incəsənət fənlərinin inteqrativ tədrisi şagirdlərdə vətən tarixi və dünya mədəniiyyəti şüur mədəniyyəti, etik mədəniyyət, bədii mədəniyyət, şəxsiyyətlərarası münasibətlər mədəniyyətinin interaktiv inkişafı, istehsal və sahibkarlıq, hüquq və idarəetmə, istehlak, məsuliyyət, sülh mədəniyyətinin və gender bərabərhüququ sahəsində qabiliyyət və bacarıqların inkişaf etdirilməsini nəzərdə tutur. Orta təhsil pilləsində həmin bacarıqların formalaşdırılması insanın öz gələcək həyatının daha uğurlu təşkili üçün zəruri, münbit və mütərəqqi baza yaradır.

**II fəslin "İncəcənət fənlərinin tədrisi üzrə metodik ədəbiyyatın təhlili"** adlanan ikinci yarımfəslində Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin öyrənilməsi istiqamətində incəsənət fənlərinin inteqrasiyası problemi araşdırılaraq, gösüləcək işlərin nəzəri və praktik məsələlərini düzgün aşkarlamağa imkan yarada bilən azərbaycanlı və xarici alimlər tərəfindən nəşr edilmiş metodik kitabları təhlil edilmişdir . M.Kaqanın "Pedaqoji prosesdə incəsənət növlərinin rolu və qarşılıqlı təsiri" məqaləsində, həmçinin V.Terentyevanın "Musiqi dərslərində kiçik yaşlı məktəblilərin müxtəlif incəsənət növlərini bütöv mənimsəmələri prosesində bədii-yaradıcı inkişafı" kitabında, eləcə də, bir çox digər əsərlərdə ümumtəhsil orta məktəb şəraitində estetik tərbiyənin məqsədyönlü sisteminin təcrübəyə tətbiqi məsələlərində çatışmamazlıqların olması haqqında qeyd və təkliflərə rast gəlirik [7]. Həmin məsələlərin musiqi, təsviri sənət və texnologiya (əmək hazırlığı) müəllimlərinin kurs məşğələlərinə salınması təklifi həmin dərslərin məzmun, məqsəd və vəzifələri haqda təsəvvürləri daha da konkretləşdirir, eləcə də, nəzəri biliklərin həcm, məzmun və istiqamətinin dəqiqləşdirilməsinə ehtiyac olduğunu nəzərə çarpdırır. Musiqi və təsviri sənət müəllimlərinin ixtisasartırması problemlərinin mühüm cəhətlərindən biri də onun fasiləsizliyinin təmin edilməsidir. Müəllimin əmək fəaliyyəti zamanı təhsilindəki fasiləsizliyin təmin edilməsi kursdan əvvəlki və kursdan

---

[7] Терентьева В.А. Художественно-творческое развитие младших школьников на уроках музыки в процессе целостного восприятия различных видов искусств, Москва: Прометей, 1990, 184 с. [16].

sonrakı tapşırıqların yerinə yetirilməsi üçün özünütəhsili stimullaşdırmaqla həyata keçirilir. Y.Turkina musiqi müəllimlərinin kurs təhsili ilə özünütəhsil sisteminin başqa pedaqoji proseslərdən fərqli beş xüsusiyyətini qeyd edir: motiv situasiyaları, komplekslilik, variativlik, fərdi yanaşma, prosesual xarakter. O, müstəqil fəaliyyət mexanizminin aşağıdakı psixoloji mərhələlərini qeyd edir. Əgər həmin mərhələləri ardıcıllıqla qursaq, belə bir vəziyyət alınar:




Müəllif haqlı olaraq, musiqi və təsviri sənət müəllimlərinin özünütəhsilə maraqlarndırılmasının iki şərtini müəyyən edir: daxili və xarici [17]. Daxili özünütəhsilə şəxsiyyətin peşəyə münasibəti, metodik-nəzəri-əməli hazırlığını, xarici özünütəhsilə isə, kənardan, motivləşdirilmiş situasiyanın yaradılması və müəllimin özünütəhsili ilə öz şəxsi metodikasının korreksiyası arasında əks-əlaqənin yaradılmasını aid edir. Musiqi, eləcə də, təsviri sənət və texnologiya müəllimlərinin özünütəhsilini stimullaşdıran amillər içərisində, həm Y.Turkina, həm də, bir çox digər tədqiqatçılar məktəb rəhbərliyi, təhsil şöbəsi və ixtisasartırma institutlarının nəzarəti və onların səlahiyyətlərinə daxil olan funksiyaları qeyd edərək, bunu, zahiri faktor kimi qiymətləndirir. Daxili amillər sırasına isə, o, aşağıdakıları aid edir: metodik mövzu seçimində müəllimin öz arzusunu nəzərə almağın əhəmiyyəti və metodistin ona köməyinin məzmunu; musiqi və təsviri sənət müəllimlərinin metodik mövzu üzərində işinin məktəb tərbiyəsindəki əhəmiyyətini dərk etməyin vacibliyi; müstəqil iş barədə müxtəlif xarakterli müəllim iclaslarında hesabat verməyin əhəmiyyəti; müəllimin seçdiyi mövzunun məktəb, rayon və şəhər üzrə təşkil olunan metodik mövzuya uyğunluğu; müəllimin müasir təlim metodlarının problemlərinə bələdliyi, ədəbiyyatla müstəqil iş vərdişlərinə malik olması.

Musiqi və təsviri sənət müəllimlərinin ixtisasartırma kurslarındakı və özünütəhsil fəaliyyətinin çoxcəhətliliyi, kompleksliliyi və hərtərəfliliyinin mahiyyəti ondadır ki, tədris zamanı müxtəlif forma və metodlar tətbiq etməklə yanaşı, həm də müəlliin təfəkkürü, hisslərinə təsir edib inkişaf etdirmək, onda bədii-yaradıcı təfəkkür,

mənəvi kamilliyə meyl tərbiyə etmək lazımdır. Bizim fikrimizcə, bu xüsusiyyəti daxili və xarici inteqrasiya adlandırmaq daha dəqiq olar. Çünki, musiqi və təsviri sənət dərsləri fəaliyyət növlərinə, həmçinin, şagirdlərin təlim-tərbiyəsi və inkişafı kimi funksiyalarına görə çoxcəhətli və mürəkkəbdir. Musiqi və təsviri sənət fənninin tədrisi metodikası didaktika, pedaqogika, psixologiya, estetika, musiqi və təsviri sənət üzrə xüsusi biliklərlə əlaqədardır. Musiqi və təsviri sənət müəllimlərinin özünütəhsilinin məzmunu yalnız o zaman müvəffəqiyyətlə təşkil edilə bilər ki, o, öz ixtisası üzrə möhkəm nəzəri hazırlığa, praktik bazaya və şagirdlərlə iş təcrübəsinə malik olsun, çünki bu sahədəki biliklər yalnız elm və incəsənət növlərinin təmas nöqtələrində alınır. Musiqi və təsviri sənət müəllimlərinin ixtisasartırma üzrə kurs və özünütəhsil fəaliyyətinin əlaqəsindən danışarkən, bu sistemin, müəllifin adlandırdığı "variantlılıq prinsipi" əvəzinə "diferensiallıq" adlandırılması daha məqsədəuyğun olar. Bu, bir çox müəlliflərin qeyd etdiyi kimi, müdavim kontingentinin təhsil, peşə və staja görə qruplaşdırılmasından başqa, tədris materialının məzmunu, mövzu seçimi, onun ardıcıllığı, həcmi, kursların məqsədi, müddəti və s. üzrə diferensiallaşdırmanı nəzərdə tutur. Musiqi və təsviri sənət müəllimlərinin "təhsil – özünütəhsil" sistemində növbəti spesifik xüsusiyyət olan "təlimin fərdiləşdirilməsi" özünütəhsil fəaliyyətinin məzmun, forma və üsullarının müəllimin şəxsi keyfiyyətlərinə, onun real imkanları və maraqlarının istiqamətinə uyğunlaşdırılmasıdır. Bu o deməkdir ki, müəllimin istifadə etdiyi üsul və tərzlərin harmoniyasından ibarət olan tədris metodlarında vasitələr – eyni, imkanlar isə - müxtəlifdir, yəni fərdidir. Bu xüsusiyyətin mahiyyəti fərdiliyin məzmununun araşdırılmasından ibarətdir.

**II fəslin – "Proqram və dərsliklərdə fənlərarası əlaqəyə verilən yer"** adlı **üçüncü yarımfəslində** Azərbaycanda dünyəvi təhsil verən ilk məktəblərin tədris planlarından başlayaraq, son zamanlar kurrikulum islahatı ilə bağlı tərtib edilən son materiallar təhlil və müqayisə edilmiş, kulturoloji metodologiya əsasında tərtib edilən inteqrativ Mədəniyyətşünaslıq fənn kulrrikulumunun zəruriliyi vurğulanmışdır. İlk illər bədii tərbiyə müxtəlif fənlər vasitəsi ilə lokal bilik, bacarıq və vərdişlər formalaşdırmaq yolu ilə həyata keçirilsə də, həmin sahələr üzrə inteqrativ fəaliyyət məhz sinifdənkənar

tədbirlərdə reallaşdırılırdı. Belə ki, bədii əsərlərin səhnələşdirilməsi müvafiq tərtibat, obrazlara uyğun paltarların hazırlanması, yəni eskizlərin yerinə yetirilməsini və bir sıra əl işlərinin düzəldilməsini tələb edirdi. Sinifdənkənar tədbirlər, mahiyyət etibarı ilə, incəsənət sahəsində olan inteqrativ biliklər əsasında yerinə yetirilsə də, fənn proqramlarının tərtibi zamanı lokal biliklər, incəsənət əsərlərinin inteqrativ mənimsənilməsi barədə söz açılmırdı. Kulturoloji yanaşma hadisələrin mahiyyəti haqqında düzgün təsəvvürlərin yaradılmasına, dövrün xarakterini və insanların psixologiyasını obyektiv anlamağa yardım edir. Uşaqların bədii tərbiyəsi daim Azərbaycan təhsilinin diqqət mərkəzində olmuş, lakin hər bir dövrdə bu məsələyə yanaşma və yaranan problemlərin həlli yolları müxtəlif olmuşdur. Azərbaycanda dünyəvi təhsil verən ilk məktəblərin tədris planlarını nəzərdən keçirərkən bədii tərbiyəyə verilən əhəmiyyət diqqəti cəlb edir. XX əsrin əvvəlində Azərbaycan təhsilinin qlobal problemlərindən olan azərbaycanlılar arasında təhsilin yayılması tədbirləri, müsəlman müəllimlərinin sayının çoxaldıldılması, Azərbaycan dilinin milliləşdirilməsi, dərsliklər haqqında, Azərbaycan dilinin tədrisi üsullarını müəyyənləşdirmək və s. mühüm məsələlər sırasında və onlarla birgə, incəsənət əsaslı - nəğmə, əmək və rəsm dərslərinin tədrisi məsələlərinin qoyulması fənnə verilən əhəmiyyətlə birgə, onu tədris edəcək pedaqoji kadrların hazırlığı barədə də müəyyən addımların atılmasını nəzərdə tuturdu. 20-ci illərdə ibtidai sinif üzrə müəllimlər hazırlayan əsas təhsil müəssisələri orta təhsil verən pedaqoji məktəblər idi. Həmin məktəblərin tədris planlarında başqa fənlərlə bərabər rəsm, nəğmə, əmək, xora rəhbərlik və məktəb bayramlarının təşkili də var idi. Kütləvi savadsızlıq və xalq təsərrüfatının pərakəndə vəziyyətində ibtidai təhsili inkişaf etdirmək ən mühüm məsələ idi. Eyni zamanda, məktəblərdə çalışan müəllimlərin yeni əmək məktəblərində işləyə bilməsi üçün onların yenidən hazırlanması və ixtisaslarının artırılması vacib idi. 1931-1939-cu illərə dair “Məktəb haqqında partiya və hökumət qərarları” ilə tanış olarkən, o dövrdə məktəb quruculuğu və müəllim nüfuzunun yüksəldilməsi istiqamətində dövlətin apardığı genişmiqyaslı işlər müqabilində bəzi formalizm təzahürləri də müşahidə olunur. Estetik tərbiyə sahəsində işin təkmilləşdirilməsi məqsədi ilə 1950-ci il Azərbaycan Dövləti

tərəfindən “Uşaqların bədii tərbiyəsi və onu yaxşılaşdırmaq tədbirləri haqqında” adlı qərar qəbul edilir. Bu qərarda maarif orqanları qarşısında uşaqların bədii tərbiyəsi işlərinin kökündən yaxşılaşdırılması vəzifəsi qoyulmuş və onun həyata keçirilməsi yollarından biri kimi, musiqi və rəsm dərslərinin tədrisi səviyyəsinin yüksəldilməsi, həmçinin, pedaqoji məktəblərdə kadr hazırlığı məsələləri, nəğmə və rəsm üzrə proqram mövzularının bədii tərbiyə tələblərinə uyğun olması, həmin dərslərin keyfiyyətinin yüksəldilməsi, uşaq özfəaliyyət dərnəklərinin işinin canlandırılması yolları göstərilmişdir. XX əsrin 50-60-cı illərində həm kadr potensialı, həm də, ixtisasartırmanın prinsip və məzmunu öz inkişafının daha yüksək pilləsinə qədəm qoydu. Özündən əvvəlki mərhələnin müsbət cəhətlərini saxlamış yeni bədii tərbiyə sisteminin prinsipləri pedaqoji prosesin başlıca prinsiplərinə uyğun idi [8]. XX əsrin 70-ci illərində estetik təbiyə məsələləri məktəb qarşısında duran başlıca problemlərdən birinə çevrildi. Estetik tərbiyə üzrə Respublika elmi-praktik konfransının təşkili şagirdlərin estetik tərbiyəsinin vəziyyətinin yaxşılaşdırılması ümumtəhsil məktəbi şagirdləri arasında bədii yaradıcılığın inkişaf etdirilməsi, respublikanın ümumtəhsil məktəblərində musiqi və təsviri sənət tədrisinin yaxşılaşdırılması tədbirləri haqqında məsələlərin ön plana çəkilməsi cəmiyyətin sosial həyatında və ictimai inkişafda estetik tərbiyənin əhəmiyyətini aktuallaşdırırdı. Musiqi dərslərində təsviri sənət və əmək hazırlığı dərsləri elementlərindən, əmək və təsviri sənət dərslərində musiqi elementlərindən istifadə edilməsinə baxmayaraq, hələ də inteqrativ fənn kimi bu fənlərin ümumi konsepsiyalar əsasında qurulması barədə nə elmi tədqiqatlara, nə də praktik fəaliyyətə rast gəlinmirdi. Metodik-pedaqoji ədəbiyyatda isə, həmin fənlərin praktik əhəmiyyətinin azlığı, nəzəri biliklərin tam əhatə edilməməsi, pedaqoji kadrların ixtisas hazırlığındakı kəsirlər barədə qeydlər nəşr olunur, bu sahədə elmi araşdırmaların genişləndirilməsi barədə mülahizələr irəli sürülürdü.

---

[8] Azərbaycan SSR NM-nin əmr və sərəncamları, 1957-ci yanvar-iyul, Bakı: Birləşmiş nəşriyyat, 1958-1959, 158 s., 1954, 72s.

**II fəslin "İnnovativ təlim metodlarının effektivliyinin sosiokulturoloji nəticələri"** adlı dördüncü yarımfəsli mədəniyyətşünaslıq üzrə biliklərin mənimsədilməsi həftədə bir saat, ibtidai, əsas və orta təhsil pillələrini əhatə etməklə, mərkəzləşmiş buraxılış imtahanlarına, eləcə də, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının informasiya bankına daxil edilmiş 10-15 sualla bütün qruplar üzrə qəbul imtahan test suallarına daxil edilməsinin kütləvi kulturoloji mədəniyyətin inkişafına mühüm töhfələr verməklə yanaşı, həmin fənlərin səmərəsiz tədrisinə sərf edilən külli miqdarda maliyyə vəsaitinin izafi sərfini aradan qaldıra bilməsi məsələləri sosiokulturoloji təhlillər vasitəsi ilə əsaslandırılmışdır. Aparılan sorğulardan alınan cavabların təhlili göstərmişdir ki, şagirdlərin mədəniyyət, sivilizasiya, mədəni insan, bədii əsər, bədii düşüncə, insanın həyatdakı rolu, kamil insan haqqındakı kulturoloji biliklərə ehtiyacı var.

Alınan cavabların təhlili göstərdi ki, şagirdlərin mədəniyyət, sivilizasiya, mədəni insan, bədii əsər, bədii düşüncə, insanın həyatdakı rolu, kamil insan haqqındakı kulturoloji biliklərə ehtiyacı var. Müəyyənedici eksperimentin cavablarından bir daha aydın oldu ki, məktəblərdə incəsənət sahələri üzrə iteqrativ dərslərin təşkili prosesində kulturoloji biliklər mənimsədilərsə və bu iş müntəzəm, sistemli, ardıcıl iş aparılarsa, şagirdlərin bu sahədəki bilik və bacarıqları dərinləşər, onlarda məntiqi və tənqidi düşüncə formalaşar. Bunun başlıca səbəblərini aşağıdakı kimi izah etmək olar:

– incəsənət əsaslı dərslərin müasir tələblərə cavab verən şəkildə keçilməməsi;

– müəllimlərin incəsənət sahələri üzrə kulturoloji istiqamətdə zəruri biliklərə malik olmaması;

– təlimin məzmununda incəsənət sahələri üzrə inteqrativ biliklərin verilməsinin nəzərdə tutulmaması ilə əlaqədar, şagirdlərdə bilikləri ümumiləşdirmək və nəticə çıxarmaq üçün məntiqi əməliyyatların aparması üzrə resursların olmaması;

– həyati bacarıqlar aşılaya bilən əməli vərdişlərin olmaması, yəni qazanılmış bilikləri ümumiləşdirmək qabiliyyətinin meydana çıxmasına kömək etməməsi;

– kurrikulum əsasında dərs deyən müəllimlərin ali məktəblərdə hazırlanmaması;

– müəllimlərin ixtisasartırma kurslarında zəruri bilik və bacarıqların təşkil edilməməsi;

– məktəblilər üçün müxtəlif incəsənət nümunələrinin kulturoloji şərhi verilmiş vəsaitlərin olmaması;

– dərsliklərdə bədii nümunələrin vahid kulturoloji prinsiplər əsasında təhlil edilmiş variantlarının verilməməsi;

– məktəblilər üçün incəsənət sahələri üzrə terminlər lüğətinin yoxluğu;

– kulturoloji terminlərin izahlı lüğətinin olmaması;

– ənənəvi və interaktiv təlim üsullarindan istifadə edilərək, məktəblilərdə tədqiqatçılıq bacarığının formalaşdırılmaması;

– sinifdənxaric və məktəbdənkənar tədbirlərin müxtəlif formalarının intensiv istifadə olunmaması;

– incəsənət əsərlərinin kulturoloji təhlilinin aparılmaması;

– incəsənət əsərlərinin əşyavi nümunələrindən, əyani vəsaitlərdən istifadə olunmamsı;

– orta ümumtəhsil məktəblərində interaktiv təlim metodlaraından istifadə zamanı əyaniləşdirici vəsaitlərdən istifadə edilməmnəsi;

– proqram, dərslik və metodik vəsaitlərin mövcud tələblər üzrə tərtib olunmaması;

– Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının qərarı ilə ali məktəblərə qəbul imtahanı bütün qruplar üzrə test suallarına kulturoloji zəmində incəsənət üzrə inteqrativ biliklərin daxil edilməsi nəticəsində yuxarı sinif şagirdlərində zəruri maraqğın yaradılmaması;

– kulturoloji zəmində incəsənət fənlərinin inteqrativ tədrisinə həsr olunmuş müasir elmi-metodik ədəbiyyatın olmaması;

– seçmə fənn və maraq kursları, humanitar fənlər dərindən tədris olunan fənlər üçün kitabların yoxluğu;

– kulturoloji zəmində incəsənət fənlərinin inteqrativ tədrisi üzrə audio, video, sidi, audi kassetlərin və disklərin olmaması;

– respublika üzrə kulturoloji zəmində incəsənət fənlərinin inteqrativ tədrisinə həsr olunmuş müsabiqələrin təşkil ejunmaması;

– bədii mətnin aşıladığı tərbiyəvi əhəmiyyətin şərh edilməməsi və s.

**III fəsil - İncəsənət fənlərinin inteqrativ tədrisinin imkan və yollari** adlanır. Bu fəsil aşağıdakı yarımfəsillərdə öz əksini tapmışır:

3.1. İbtidai təhsil pilləsində incəsənət fənlərinin inteqrativ tədrisi

3.2. Əsas təhsil pilləsində incəsənət fənlərinin inteqrativ tədrisi

3.3. Orta təhsil pilləsində incəsənət fənlərinin inteqrativ tədrisi

3.4. Ali məktəblərə qəbul zamanı incəsənət üzrə kulturoloji testlərdən istifadə edilməsinin əhəmiyyəti

**III fəslin "İbtidai təhsil pilləsində incəsənət fənlərinin inteqrativ tədrisi"** adlanan birinci yarımfəsildə kiçik yaşlı məktəblilərdə estetik hissin formalaşıb estetik dəyərə çevrilməsinin yalnız incəsənət fənlərinin birgə tədrisi yolu ilə əldə etməyin, eləcə də məkan-zamani incəsənət növləri arasında assosiativ qabiliyyətlərin tərbiyəsinin yalnız estetik fənlərin kompleks təşkili yolu ilə mümkün olması fikri incəsənət əsaslı fənlər üzrə tərtib edilmiş kulrrukulumların məzmun xətlərinin və kompetensiyaların müqayisəli təhlili vasitəsi ilə əldə edilməsi problemi əsaslandırılmışdır. Yaradıcı məsələləri həll etmək, təxəyyülün hər-hansı bir obraz quruluşunu tamamlamaq bacarığı olduğuna görə, o, insan psixikasının müxtəlif rəngarəng sahələrinin hərəkətə gətirilməsini tələb edir. Təxəyyülün məhsuldarlığı fakt və hadisələrin, bir və ya bir neçə əlamətinə görə, mütəhərrik - məntiqi uyğunlaşdırılıb quraşdırılması, yəni bütövləşdirilməsi ilə təmin edilə bilər. Bu zaman hiss, təxəyyül və təfəkkürün qarşılıqlı birgəfəaliyyəti aktuallaşır. Müəllimin əsas vəzifəsi fənn üzrə xüsusi – spesifik bacarıqları bu üç faktorun (hiss, təxəyyül, təfəkkür) optimal birliyi vasitəsilə inkişaf etdirmək və təlim materialını şagirdin yaddaşına yox, təxəyyülünə "yükləməkdir". Çünki, təxəyyülə "yüklənən" təlim materialı rəngarəng şəxsi-fərdi təəssüratlar fonunda öz müstəqil fəaliyyətini davam etdirərək, şagirdin indiyə qədər olan digər təəssürat fraqmentləri ilə birləşib, onun tam təsəvvürünə çevrilir. Burada təfəkkürün fəaliyyəti təxəyyül materiallarına intellektual-korreksiyaedici süzgəcdən keçirməkdən ibarət olur. Bu proses Milli Kurrikulum əsasında tərtib edilmiş fənn kurrikulumlarının məzmun standartlarında və onların inteqrativləşdirilmə imkanlarında da öz əksini tapmışdır. incəsənət fənlərinin həm məzmun xətləri, həm də

standart və alt standartlarındakı ümumi məsələlər bir-birini təkrar etdiyinə görə inteqrasiya üçün geniş şərait yaradır [9]:

| Təsviri incəsənət | Musiqi | Texnologiya |
|---|---|---|
| Məzmun xətləri:<br>Cəmiyyət və təsviri incəsənət<br>Təsviri və dekorativ yaradıcılıq<br>Estetik reaksiya | Məzmun xətləri:<br>Musiqi aləmi<br>Emosional dəyərləndirmə<br>Musiqi fəaliyyəti | Məzmun xətləri:<br>Emal texnologiyaları texnika elementləri<br>Məişət mədəniyyəti<br>Qrafika |
| IIsinif –<br>Alt standart :<br>2.2.3.Sadə materiallardan ritmik dekorativ kompozisiyalar tərtib edir. | II sinif –<br>Alt standart :<br>3.3.2.Mahnını uyğun ritm və templə oxuyur. | II sinif - standart<br>4.1.Sadə əşyaları qrafik təsvir edir.<br>Alt standart:<br>4.1.2.Hazırlanacaq məmulatın təsvirini çəkir. |

Burada söhbət təbii-irsi qabiliyyət olan ritm hissindən gedir. Rəsmdə bu - qrafik təsvir texnikası, formayaradıcı hərəkət ilə bağlı psixomotor, rəng və formaların, işıq və kölgənin növbələşməsinin qavranılmasından ibarət emosional fəaliyyətlərlə bağlıdır. Musiqidə isə bu, vurğuların ardıcıl və müntəzəm növbələşməsinin hərəkətlərlə ifadə edilməsindən ibarət emosional-psixomotor fəaliyyətdir. Texnologiya və təsviri sənətdə naxış – hər hansı bir təsvir elementinin dövri olaraq təkrarlanmasıdırsa ( məs.: müntəzəm təkrarlanan nəbati və ya həndəsi fraqmentlər - rəngli üçbucaqlar, yarpaq rəsmi və s.), şagird bunu asanlıqla icra edə biləcək və uyğun səviyyəli meyarla qiymətləndiriləcəkdir.

Musiqidə ritm hissi təbii-irsi və xüsusi-spesifik qabiliyyətdir. Əgər şagirdin səs və ritm duyumu qabiliyyəti irsən fitrətən yoxdursa və standartın tələblərini ödəmirsə, burada şagirdin emosional-psixoloji bədbinliyi ilə birgə, müəllim üçün qiymətləndirmə problemləri yaranacaqdır. Belə halların aradan qaldırılması məqsədi ilə dərs-

[9] Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurrikulum)// 2007, s.12

lərin kompleks-inteqrativ təşkili vacib və zəruridir. Çünki, bu zaman ayrı-ayrı standartlar bir-birinə uyğunlaşdırılır, bacarıqların biri-digərinə bərabərləşdirilərək, əvəz edilir, şagirdin tədris fəaliyyəti rəngarəngləşir. İncəsənət əsaslı musiqi, təsviri sənət və texnologiya fənn kurrikulumlarında verilmiş standartların müqayisəsi göstərir ki, onlar bir-birini təkrar edir. Təkrarlanan standartlar üzrə şagirdə verilmiş mahnını oxumaq yox, onun növbələşən ritminin qrafik təsvirini həndəsi və ya nəbati elementlərlə ifadə etmək təklif edilir.

Kütləvi uşaq bədii tərbiyəsi öz qarşısında gənc nəslin bədii zövqünü formalaşdırıb fəal istehlakçı tərbiyə etmək məqsədini qoyur. Azərbaycanda xüsusi bədii təhsillə əhatə olunmuş təqribən 10% istisna olmaqla, şagirdlərin böyük əksəriyyətinin bədii incəsənətlə məqsədyönlü tanışlığı ümumtəhsil məktəblərində baş verir. Uşaqların kiçik yaşlarından bədii mədəniyyətə nüfuz etməsinin əsas təşkilatçısıibtidai sinif müəllimidir. İbtidai sinif müəlliminin musiqi, texnologiya, təsviri sənət dərslərini təlim edə bilməsi onun hazırlıq səviyyəsi ilə bağlıdır. Belə ki, yuxarı siniflərin bədii tərbiyəsi ibtidai siniflərdə bu məsələnin necə qoyulmasından çox asılıdır. Proqram materialı bu fənni tədris edən müəllimdən çoxsahəli bilik, bacarıq və vərdişlər tələb edir. İntidai sinif müəllimlərinin tədris etdiyi musiqi, texnologiya və təsviri sənət dərslərini dinləyərkən, nəzəri savad və əməli fəaliyyətə, yaxşı halda, az vaxt ayrılması, əksər hallarda isə, heç vaxt ayrılmaması müşahidə edilir. Belə ki, musiqi dərsləri məktəb mahnı repertuarının xorla birsəsli oxunmasına, təsviri sənət dərsləri mövzu üzrə hər hansı bir sadə əşyanın təsvir edilməsinə, tesxnologiya dərsləri isə, sadə məmulatların hazırlanmasına həsr edilir. Lakin, hətta, xorla oxuma zamanı belə, vokal aparatı, vokal qaydaları, uşaq səsinin mühafizəsi vədirijorluq hərəkətləri haqda məlumat verilmir. Bu səbəbdən də, xorla oxumanın bədii-estetik və tərbiyəvi əhəmiyyəti öz qüvvəsini itirir. Təsviri sənət və texnologiya fənləri dərslərində də peşə yönümü, əmək vərdişləri, əməyin tərbiyəvi əhəmiyyəti unudularaq, zahiri formal məsələlər əhatə olunur. Bunun bir səbəbi nəzarətlə əlaqədardırsa, digər səbəbi ilkin pedaqoji təhsil səviyyəsinin keyfiyyəti ilə bağlıdır. Bir çox alim-pedaqoqlar yaradıcı tapşırıqların müxtəlif rəngarəng variantlarını təklif edir:

1. Eyni mövzunun müxtəlif bədii –obrazlı həlli. Burada hər hansı bir mövzu müxtəlif incəsənət sahələri üzrə təhlil edilir. Məsələn, “Payız” mövzusu R.Şəfəqin Ə.Ağayevin sözlərinə bəstələdiyi “Payız” mahnısı, P.Çaykovskinin “Payız” pyesi, S.Bəhlulzadənin və İ.Levitanın əsərlərində payız mövzusunun müxtəlif bədii-obrazlı həll yolları təhlil edilir. Başqa bir mövzu olan “Günəş” mövzusu H.Nəcəfova və X.Əlibəylinin “Günəş olaram mən də”, S.Rüstəmov və M.Seyidzadənin “Gün, çıx!” mahnıları, E.Qriq və M.Nəsirbəyovun “Səhər” və “Günəş çıxdı” fortepiano pyesləri və Çürlönisin “Günəş sonatası” rəsm əsərində Günəş obrazının müxtəlif incəsənət növləri üzrə bədii-obrazlı həlli yolları təhlil edilir.

2. Səslərin rənglərlə təsviri. Burada dinlənilən süjetsiz musiqi əsərinin əhval-ruhiyyəsi və ya xarakteri bir neçə - üç və ya dörd rənglə təsvir edir, sonra isə hər kəs öz təsvirini şərh edir.

3. Musiqinin qrafik təsviri. Bu oyunu keçirmək üçün əvvəl, şərti işarələr elan edilir, məsələn:

Ritm – qısa səslər (·), uzun səslər (-).

Temp - tez (↯↯), ağır (↺).

Dinamika - uca (ф), zəif (p).

Səsi tədricən zəiflətmək ⎯⎯⎯

Səsi tədricən gücləndirmək ⎯⎯⎯

Registr – yuxarı (↑), aşağı (↓), orta (→).

Melodiyanın istiqaməti

4. Bədii obrazın bir incəsənət növündən digərinə köçürülməsi.

a) söz və ya mətni plastik hərəkətlərlə təvir etmək; b) rəsm əsərlərinə söz mətni (nəzm və ya nəsrlə), melodiya qoşmaq; c) musiqi parçasının xarakterinə uyğun şəkil çəkmək və çer qoşmaq və ya bildiyin uyğun şer parçasını söyləmək.

5. Bədii əsəri sözlə təsvir etmək.

6. Mnemonika. Hər hansı bir əşyanı müəyyən həyat hadisəsinə assosiativ bənzətməklə baxmaq-görmək, qulaq asmaq-dinləmək vərdişlərinin yaradılması: məsələn, bu budaq, ağac kökü, bulud nəyə bənzəyir?

7. Hər hansı rəsm əsərindəki hadisələrin davamını fikirləşmək.

8. Şagirdlərdə fəal həyat mövqeyi formalaşdırmaq üçün mövzularda toxunulan mənəvi məsələlərin dəqiqləşdirilməsi və müəyyən suallarla istiqamətləndirmək: "Bəs sən həmin şəraitdə necə hərəkət edərdin?", "Sən bu hadisəni necə qiymətləndirirsən?", "Qəhrəmanın köməyə ehtiyacı varmı?" və s.

9. Əsərdəki detalların dəqiqləşdirilməsi və suallar: "Şəkildəki oğlan nə barədə düşünür?", "Şəkildəki adamlar hara gedirlər?", "Hekayədəki qızın sevdiyi mahnı hansı idi?".

10. Fantastik təkliflər: a) Hadisə, melodiya və şəklin məzmununun əks istiqamətdə nağıl edilməsi və ya ifa edilməsi; b) Hadisələrin baş verdiyidövrü, yeri, melodiyanın tonallığını, şəkildəki obrazların yerini və məkanını dəyişməklə hadisələri nəql etmək və ya ifa etmək; e) Başqa-başqa bədii əsərlərin qəhrəmanlqarını bir-biri ilə görüşdürmək; ə) Əsərin qəhrəmanlarının xarqakterini dəyişmək; d) Nağıl qəhrəmanlarının müasir texnikadan istifadə etməsi; f) Hər hansı bir hadisənin başqa bir qəhrəmanın dilindən nəql edilməsi və s.

Bütün bunlar şəxsiyyətdə hər hansı bir hadisə haqqında müstəqil mühakimə yürütmək və sərbəst fikir formalaşdırmaq qabiliyyətinin yaradılmasına kömək edir.

**III fəslin "Əsas təhsil pilləsində incəsənət fənlərinin inteqrativ tədrisi üzrə işin imkan və yolları"** adlı ikinci yarımfəsildə əsas təhsil pilləsində incəsənət əsaslı fənlərin inteqrativ tədrisinin, kulturoloji yanaşma baxımından, tarixi-xronoloji və xətti ardıcıllıq üzrə həyata keçirilməsi məqsədəmüvafiq hesab edilməsi və V-IX siniflərdə incəsənət əsaslı fənlərin inteqrativ tədriinin mətndəki ifadə vasitələrinin təhlilindən başlanması məqsədəuyğun hesab edilməsi vurğulanır, təklif edilmiş müddəaların eksperimental təsdiqi cədvəl və sxemlərlə öz əksini tapır. Əsas təhsil pilləsində incəsənət əsaslı fənlərin inteqrativ tədrisinin, kulturoloji yanaşma baxımından, tarixi-xronoloji və xətti ardıcıllıq üzrə həyata keçirilməsi məqsədəmüvafiq hesab edilir. Məsələn:

V sinifdə - İbtidai və antik dövr mədəniyyəti;

VI sinifdə - Quldarlıq cəmiyyəti mədəniyyəti;

VII sinifdə - Feodalizm mədəniyyəti;

VIII sinifdə - İntibah və yeni dövr mədəniyyəti;

IX sinifdə - Kapitalizm və sosializm mədəniyyəti.

Əsas təhsil pilləsində yuxarıdakı tarixi dövrlər üzrə kulturologiyanın predmetini əhatə edən məsələlər nəzərdən keçirilir. Kulturologuiyanın predmetini isə, insanın həyat və fəaliyyətinin aşağıdakı tarixi, nəzəri problemləri təşkil edir:

- insan inkişafının təşəkkül tarixi və qanunauyğunluqları;
- insanların düşüncəsi və həyat tərzi;
- adət və ənənə ;
- təhsil, elm və incəsənətin tarixi və nəzəriyyəsi;
- həyat fəaliyyətinin fəlsəfə, məntiq, etika və texnologiyaları;
- insan fəaliyyətinin məqsəd və motivləri;
- dini və elmi dünyagörüşün inkişafı;
- mədəniyyətin sosial institut və bütöv sisteminin inkişafı;
- mədəniyyətin sosial institutlarının qarşılıqlı fəaliyyət mexanizmləri;
- xalqların və dövlətlərin sosial-mədəni inkişaf təcrübəsi;
- bəşəriyyətin və xalqların başlıca nailiyyətləri ;
- mədəniyyət nümunələrinin yaranma tarixi və sosial şəraiti;
- milli mədəniyyətlərin müqayisəli təhlili [2 ].

Müasir psixologiyada "fəaliyyət" və "ünsiyyət" kateqoriyaları bir-birindən fərləndirilir ki, birinci anlayış insanın subyekt-obyekt münasibətlərinə, ikincisi isə, subyekt-subyekt münasibətlərinə daxildir. Belə ki, bəzi intellektual oyunlar zamanı insan əşya ilə (məsələn, şahmat, konstruktor və s.) təmasda olursa, rollu oyunlar zamanı insanla ünsiyyətdə olur. Rollu oyunlar zamanı empatiya və refleksiya ünsiyyətin mühüm amilləri kimi çıxış edir. Empatiya başqasının psixoloji vəziyyətinin duyulması kimi özünü göstərirsə, refleksiya – öz daxili aləmini duymaq və dərk etmək kimi çıxış edir. Qədim dövrlərdə istifadə edilən terminologiya ilə ifadə etməyə çalışsaq, bu psixoloji vəziyyətlər "riqqət" və "iffət" sözləri ilə təsvir edilə bilər. Belə ki, Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri" əsərində riqqət – "başqasının uğursuzluğuna, onun işinə qarışmadan mütəəssir olmaq"; iffət – "öz hisslərini dərk edib, onları idarə edə bilmək",

şəfqət isə – “başqasına uğursuzluq üz verdikdə, onu aradan qadırmağa çalışmaq” tərifləri ilə ümumiləşdirilmişdir [10].

Fəal təlim metodu və onu ən rəgarəng formalarının təlim prosesinə tətbiqi mütləq refleksiya, yəni daxili təkamül, daxili keyfiyyət dəyişikliyi ilə nəticələnir. Əsas təhsil pilləsində incəsənət əsaslı dərslərin inteqrtivləşdirilməsi fəal təlim metodlarından intensiv istifadə edilməsini şərtləndirir. Təhsil islahatının tələbllərinə əsasən, məktəbliləri daha çox axtarışa yönəltmək, onlarda mətnə yaradıcı yanaşmanı formalaşdırmaq, termin ehtiyatını zənginləşdirmək incəsənət tədrisinin əsas məqsədlərindəndir.

V-IX siniflərdə incəsənət əsaslı fənlərin inteqrativ tədriinin mətndəki ifadə vasitələrinin təhlilindən başlanması məqsədəuyğun hesab edilir. Bu barədə həm yerli, həm də xarici ölkə alimlərinin müxtəlif tədqiqatları mövcuddur. Əslində, mətn üzərində aparılan işin rəngarəng formaları mövcuddur. Həm ənənəvi, həm də yeni interaktiv təlim metodları tələb edir ki, bədii mətnin təhlili üzrə zəruri əməli fəaliyyət həyata keçirilsin, çünki məktəblilərin təhlil bcarıqlarının inkişafı onların həyati bacarıqlarının ehtiyat bazasına daxildir.

Bədii əsərlərin müqayisəli təhlili üzrə məşğələlər müxtəlif incəsənət əsərlərinin bütöv mənimsənilməsini təmin etdiyinə görə, son zamanlar incəsənət əsaslı fənlərin inteqrativləşdirilməsi tendensiyası geniş vüsət alaraq, aktuallaşmışdır. O.Apraksina incəsənət əsələrinin mənimsənilməsi üçün aparılan işi “bədii-pedaqoji təhlil” adlandırır və şagirdə estetik təsir vasitəsi olaraq, təklif edilən proqram tələbləri həcmində, bədii dil elementləri və epistolyar-bioqrafik məlumarları nəzərdə tutur [11]. Burada bdii obrazı əmələ gətirən ifadə vasitələrinin təhlili həm emosional, həm də şüurlu münasibəti əks etdirir, nəzəri bilikləri əməli vərdişlər üzvi şəkildə tamamlayır, əməli vərdişlər isə, öz növbəsində, nəzəri biliklərin möhkəmləndirilməsinə yönəldilir. Burada kulturoloji təhlil bacarığı əməli vərdiş kimi çıxış edir və incəsənət növləri haqqında təsəvvürlərin zənginləşməsinə xidmət edir.

---

[10] Nəsirəddin Tusi, Əxlaqi Nasiri, Bakı: Elm,1989, 256s.

[11] Апраксина О.А. Методика музыкального воспитания в школе, Москва: Просвещение, 1983, 224 с. [176]

**Ümumtəhsil məktəblərinin orta təhsil pilləsində incəsənət fənlərinin inteqrativ tədrisi üzrə işin imkan və yolları** – adlı üçüncü yarımfəsildə indiyə qədər bu mərhələdə incəsənət əsaslı fənlərin tədrisinin heç bir zaman nəzərdə tutulmamasının zərərli və acınacaqlı nəticələri təsvir edilmiş, kulturoloji təhsilin zəruriliyi əsaslandırılmış, aparılan eksperimentlərin texnologiya və nəticələri təsvir edilmişdır. Orta təhsil pilləsi ali məktəbə hazırlıq dövrü kimi orta ümumi təhsilin mühüm mərhələsi hesab olunur. Bu mərhələdə incəsənət əsaslı fənlərin tədrisi heç bir zaman nəzərdə tutulmamışdı. Bu fakt sübut edir ki, incəsənət əsaslı fənlər üzrə qazanılacaq təlim nəticələri əhəmiyyətli və zəruri hesab edilməmiş, daim ikinci planda olmuş, həmin fənlər daha çox tərbiyəvi mahiyyət daşımış, zehni gərginlikdən sonra şagirdlərin əyləncəsini səmərəli təşkil etmək və onların əxlaqına müsbət təsir göstərmək məqsədi ilə təlim edilmişdir. Deməli, incəsənət əsaslı fənlər daim "yeniyetmələrə əqli əməkdən sonra istirahət verməklə bərabər, onların əxlaqına təsir etmək və xüsusi istedadllarının üzə çıxmasına imkan yaratmaq" üçün tədris edilmişdir. Bunun nəticəsidir ki, incəsənət əsaslı fənlər daim ikinci planda olmuş, "ikinci dərəcəli" mahiyyət daşımış, həmin fənlər üzrə heç bir təlim pilləsində, heç bir zaman imtahan salınmamış, qazanılan bilik və bacarıqların həyati əhəmiyyətliliyi üçün müəllimlərin məsuliyyət daşıması məktəb və təhsil təşkilatçılarının diqqət mərkəzindən kənarda qalmışdır. İncəsənət fənləri üzrə təlim nəticələrinin qiymətləndirilməsi yalnız məktəb və rayon tədbirləri, mahnı bayramları, rəsm və əl işlərindən ibarət sərgilər olmuşdur. Məsələyə məhz belə yanaşma incəsənət əsaslı fənlərin məğzini tədbirlərə hazırlıq səviyyəsinə endirmiş, mənimsənilməsi zəruri sayılan biliklərin ardıcıllığı, müntəzəmliyi, sistemliliyinin meyar göstəriciləri, dərsin məqsəd və vəzifələri təhrif olunmuşdur.

Kulturoloji təhsil fərdiləşdirilmiş mədəniyyətdən kütləvi mədəniyyətə keçidlə şərtlənən mahiyyətini əks etdirərək, dünyagörüş və davranış normalarının öyrədəndən öyrənənə şəxsi təcrübə ilə ötürülməsi, başqa sözlə, elitar mədəni nailiyyətlərin adi mədəniyyət dilinə keçirilərək, cəmiyyətdə çoxaldılması yolu ilə insanların kütləvi mədəniləşdirilməsini təmin edir. Bura cəmiyyətdə rəsmi təbliğ edilən baza dəyər anlayışlarının əsasları və mədəniyyətin

standart dünyagörüş normalarının uşaqların şüuruna daxil edilməsindən ibarət olan uşaq tərbiyəsinin aşağıdakı universallaşdırılmış sistemi daxildir: uşaq ədəbiyyatı və incəsənəti; uşaq təşkilatları, klub və dərnəklər; kollektiv tərbiyə texnologiyaları.

Kütləvi ümumtəhsilin məktəbi şagirdlərdə elmi biliklərin əsasları, ətraf aləm haqqında fəlsəfi təsəvvürlər, insanların kollektiv həyat fəaliyyətinin tarixi sosial-mədəni təcrübəsinin mənimsənilməsi sistemli kulturoloji təhsilin məqsədlərindəndir. Ədəbiyyatda kulturoloji təhsilin cəmiyyətə aşağıdakı sahələr üzrə universal və xüsusi elmi biliklər ötürüldüyü qeyd edilir:

▫ etik mədəniyyət;
▫ hüquq mədəniyyəti;
▫ estetik və bədii mədəniyyət;
▫ ekoloji, tibbi və ətraf aləmin mühafizəsi mədəniyyəti;
▫ məsuliyyət mədəniyyəti;
▫ qidalanma və istehlak mədəniyyəti;
▫ demokratiya və vətəndaş cəmiyyətinin siyasi mədəniyyəti;
▫ sülh mədəniyyəti və gender mədəniyyəti;
▫ iqtisadi inkişaf və biznes etikası mədəniyyəti;
▫ xalqlar-millətlər-dinlərarası münasibət mədəniyyəti;
▫ xalqın mədəniyyət tarixi texnologiyaları;
▫ bəşəriyyətin həyat fəaliyyətinin texnologiyaları;
▫ yoxsulluq, korrupsiya və terrorizmin aradan qaldırılması mədəniyyəti;
▫ dövlət, sosial və qlobal idarəetmə mədəniyyəti.

Kulturoloji təhsil nəticəsində isə, aşağıdakıların əldə edilməsi vurğulanır:

▫ yüksək mədəniyyətli, zəruri bilik və bacarıq səviyyəsinə, məsuliyyət və müstəqilliyə, mənəviyyat və yaradıcı fəaliyyətə malik yeniyetmələr formalaşır;

▫ mürəkkəb sosial-siyasi problemləri düzgün konseptual görmək, diaqnoz etmək, strateji planlaşdırmaq və sistemli həll etmək, gələcəyi düzgün görmək bacarığı tərbiyə olunur;

▫ cəmiyyətin həyati maraqlarına cavab verən düzgün sosial-mədəni siyasət formalaşır;

▫ BMT və YUNECKO –da qəbul edilmiş beynəlxalq norma və dəyərlər, etik prinsiplər öz təsdiqini tapır;

▫ ümumbəşəri mədəni dəyərlər əsasında mədəni eynilik yaranır;

▫ müharibə, qarşıdurma, terrorizm, zorakılıq və böhranların qarşısı alınır, sosial təhlükəsizlik əldə edilir;

▫ ənənəvi mədəniyyətlərin modernləşdirilməsi təmin edilir;

▫ demokratiya və vətəndaş cəmiyyəti mədəniyyəti, sülh mədəniyyəti, intellektual, etik, bədii, iqtisadi, hüquqi, məsuliyyət, idarəetmə, istehlak, siyasi, informasiya məddəniyyəti inkişaf edir;

▫ mədəni müxtəliflik və mədəni özünəməxsusluq qorunur;

▫ beynəlxalq əməkdaşlıq və sosial mədəniyyət inkişaf edir;

▫ əhalinin yüksək sosial fəallığına nail olunur;

▫ cəmiyyətin həyat keyfiyyəti və maddi rifahı artır;

▫ yoxsulluq aradan qalxır;

▫ əhalinin sağlamlığı qorunur və uzunömürlülük artır və s. [12]

Orta təhsil pilləsində incəsənət əsaslı fənlərin inteqrativ tədrisi, kulturoloji yanaşma baxımından, müasir dünya mədəniyyəti əsasında qurulur. Burada aşağıdakı məsələlər araşdırılır: qlobal cəmiyyət mədəniyyəti; mədəniyyətin funksiyaları; mədəniyyətin inkişaf qanunları; dövlət və cəmiyyətin təşəkkülü və inkişaf qanunları; bəşər mədəniyyətinin inkişafında görkəmli şəxsiyyətlərin rolu; mədəni müxtəliflik və mədəni qeyri-bərabərlik; ictimai-sistemlərin mədəniyyəti; idarəetmə və dövlət quruculuğu mədəniyyəti; böhranların aradan qaldırılması və mədəni tərəqqiyə canatma yolları; vətəndaş cəmiyyəti mdəniyyəti; mədəniyyətin istehsal, istehlak, mühfizə, mübadiləsi və ötürülməsi; kulturologiyanın əsas məktəb, istiqamət və nailiyyətləri; mədəniyyətlərarası dialoqun düzgün inkişaf etdirilməsi; dünya mədəni nailiyyətlərinin mahiyyət, texnologiya və dəyərləri; milli mədəniyyətin bu gün və gələcək üçün dəyər və əhəmiyyəti; informasiyalı cəmiyyətə keçidin şərtləri və s. Həmin məsələlərin digər yaxın fənlərlə yanaşı incəsənət əsərləri baxımından da nəzərdən keçirilməsi problemin aktuallığını vurğulayaraq, əhəmiyyətini bir

---

[12] Мамедов Ф. Культурология, как путь к эффективной жизнедеятельности, Баку: Абилов, Зейналов и сыновья, 2006, 576 с. [127]

daha artırır və kulturoloji terminologiyanın şagirdlər tərəfindən daha asan mənimsənilməsinə yardım edir. Bununla belə, incəsənət növləri üzrə zəruri nəzəri biliklər əsasında kulturoloji terminologiyanın çətin mənimsənilməsinin əsas səbəbi onun lüğəti mənasının araşdırılmamasının zəruriliyindədir. Orta məktəbdə incəsənət sahəsində ən ümumi kulturoloji biliklərin mənimsənilməsi nəzərdə tutulsa da, bununla birgə, həmin incəsənət sahələri üzrə xüsusi və kulturoloji terminologiyanın hansı kontekstdə mənimsədilməsi də mühüm əhəmiyyət daşıyır.

**III fəslin "Ali məktəblərə qəbul zamanı incəsənət üzrə kulturoloji testlərdən istifadə edilməsinin əhəmiyyəti"** adlı **dördüncü yarımfəsli** kulturoloji yanaşma baxımından, incəsənət fənlərinin inteqrativ tədrisinə əsaslanan mədəniyyətşünaslıq fənni şagirdlərin idarəetmə qabiliyyətlərinin inkişafına stimul verə biləcək bacarıqlar formalaşdırmağa qabil olması əsaslandırılır. Belə ki, yüksək kulturoloji bilikləri olan gənclər öz mədəni xidmətlərini bazara çıxararaq marketinq mübadiləsində iştirak etmək imkanı qazanırlar. Onlar mövcud bazardakı təhsil ehtiyaclarını ödəmək qabiliyyətinə malik olduqlarına görə, marketinq münasibətlərinə girərək öz tələbatlarını ödəmək imkanı əldə edirlər. Çünki, müasir dövrdə hər hansı bir insanın cəmiyyətdə nüfuz qazanması kimi sosial ehtiyacının və özünüifadə kimi şəxsi ehtiyacının ödənməsi onun təhsil səviyyəsi ilə şərtlənir. Ali məktəblərə qəbul insan həyatının həlledici mərhələlərindəndir. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının keçirdiyi ali məktəblərə qəbul imtahanları gənclərin orta təhsilinin yekunu, onların orta təhsil illəri ərzində qazandıqları bilik və bacarıqlarının qiymətləndirilməsi, hesaba alınması, yoxlanılmasının və nəzarətə götürülməsinin mühüm dövrüdür. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının test bankına imtahan salınmış hər bir fənn üzrə rəngarəng tapşırıq və suallar daxil edilmişdir. Test sualları ən qabaqcıl müəllim, metodist və alimlər tərəfindən hazırlanır. Ali məktəblərə qəbul orta təhsilin yekunu ilə sıx bağlı olduğu üçün, burada kulturoloji biliklərin mənimsənilmə keyfiyyətinin yoxlanılmasının test imtahanlarına daxil edilməsi zəruri hesab edilir.

Azərbaycanda keçirilən Təhsil Sahəsində İslahat Layihəsinin əsas istiqamətlərindən biri "Ümumi təhsilin keyfiyyəti və real

tələbatlara uyğunluğu" komponentinin tərkib hissəsi olan "Şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemin yaradılması" – dir. Bu sənəd təhsildə qiymətləndirmə fəaliyyətləri ilə bağlı aparılan islahat yönümlü tədbirləri əhatə edir. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas indikator şagirdin təlim nəticələri olduğundan həmin nəticələrin obyektiv qiymətləndirilməsi keyfiyyəti üzə çıxaran ən etibarlı mənbə hesab olunur. Müasir dövrdə qiymətləndirmə fəaliyyətinə qoyulan tələblərdən biri də təlim prosesində şagirdlərin məntiqi təfəkkürlərinin formalaşdırılmasına köməklik göstərilməsidir.

Hazırda bir çox ölkələrin təhsil sistemlərində yeni qiymətləndirmə modellərinin qurulması, şagirdlərin təhsil nailiyyətlərinin uçotunun aparılması və təhsil pillələri üzrə büraxılış, eləcə də, ali məktəblərə qəbul imtahanlarının təşkili ilə bağlı radikal və genişmiqyaslı islahatlar aparılmışdır. Bunların əsas xarakterik xüsusiyyətləri aşağıdakı kimi səciyyələndirilir: yüksək rəqabət və bazar münasibətləri şəraitində milli mütəxəssislərin yetişdirilməsi üçün kurrikuluma yeni fənlər və peşələr daxil etmək, tədris proqramlarında əsas diqqəti praktik vərdişlərin aşılanmasına və problemlərin həllinə yönəltmək, bütün şagirdlər tərəfindən minimum standartların mənimsənilməsini təmin etməkdir. Hal-hazırda yekun imtahanına daxil edilə biləcək fənlər Azərbaycan tarixi, Coğrafiya, Fizika, Kimya, Biologiya və Xarici dil fənlərindən ibarətdir. Beynəlxalq şagird qiymətləndirilməsi proqramı üzrə həyata kecириləcək əsas tədbirlərdən - riyazi savadlılığı, oxu savadını, təbiət elmləri üzrə savadlılığı və problemləri həll etmək bacarığını yoxlamaq üçün kompleks şəkildə qurulmuş tapşırıqlar işlənib hazırlanmışdır.

Fikrimizcə, yeni fənn kimi incəsənət fənlərinin, kulturoloji yanaşma baxımından, inteqrativ tədrisinə əsaslanan mədəniyyətşünaslıq fənni şagirdlərin idarəetmə qabiliyyətlərinin inkişafına stimul verə biləcək bacarıqlar formalaşdırmağa qabildir. Belə ki, həmin fənnin məhz idarəçilik bacarıqlarının inkişafına istiqamətlənməsi kritik, məntiqi, tənqidi düşünmə və idarəçilik bacarığının inkişafını təmin edir. Mədəniyyıtşünaslıq və idarəçilik fənləri üzrə bilik və bacarıqları özündə birləşdirən İncəsənət və mədəniyyətşünaslıq fənninin tədrisinin təşkili və həmin fənn üzrə test suallarının buraxılış

imtahanlarına daxil edilməsi həyati çətinlikləri dəf edə biləcək məntiqi və tənqidi düşüncəyə malik rəqabətqabətəqabil şəxsiyyətlərin yetişdirilməsi tələbinə cavab verə bilər.

Kulturoloji baxımdan, təhsil mədəniyyətin inkişafının texnoloji faktorudur. Təhsil mədəniyyətinin inkişaf səviyyəsi adam başına düşən enerji ilə enerjinin istifadəsinə sərf edilən texnoloji vasitələrin effektivliyindən asılıdır B=f(C). Enerjini maddiləşdirmək üçün onu lokallaşdırmaq, səmərəli texnologiyalar seçmək lazımdır. Kulturoloji baxımdan, insan enerjisinin səmərəli sərfi təhsil mədəniyyətini təmin edir. Təhsil mədəniyyəti uğurlu texnologiyaların tətbiqini tələb edir. Hal-hazırda ən uğulu texnologiyalar "nizamlılığı ilə fərqlənən, entropiyanı azalda bilən sistemlərdir". Buna görə də, həyatda baş verən bütün proseslərin öyrənilməsində "nizamlılığı ilə fərqlənən, entropiyanı azalda bilən sistemlərdən" istifadə edilir və onların tətbiqi uğurlu nəticələr verir. Gənclər bilməlidirlər ki, bazar iqtisadiyyatının geniş vüsət aldığı indiki dövrdə intellektual əməyə, elm tutumlu istehsala və onun çeşidinin artırılmasına sərmayə qoyuluşu bir o qədər yüksəkdir. Ona görə də bazarda "intellektual təhsil bazarında marketinq"-in təşkili, planlaşdırılması və idarə edilməsi sosial inkişafın əsas göstəricisi kimi qiymətləndirilir. Təhsildə marketinq intellektual əməyin nəticəsi olan məhsulun satışı üçün əlverişli zəmin yaradılması – bazarın öyrənilməsi, istehlakçının tələbatının müəyyənləşdirilməsi, proqnozlaşdırıcı fəaliyyət, məhsulun çeşidinin artırılması və bazarın idarə olunmasıdır. Təhsil əməyi intellektual əməyin nəticələri kimi özünü göstərir. Yeniyetmə bilməlidir ki, müəssisələr kulturoloji biliklərə malik insan üçün bazardır, yəni alıcılıq ehtiyacı olan ayrı-ayrı fərdlərin məcmusudur. İnsan həmin bazarda mübadilə etmək məcburiyyətindədir. Mübadilə insan ehtiyaclarının və tələbatlarının ödənilməsi məqsədi ilə bazarla (fərdlərlə) aparılan iş olduğu üçün, özünü təqdim etmək, öz məhsulunu təklif etmək, ünsiyyətə girmək, insanları inandırmaq bacarığı, nitq və ünsiyyət mədəniyyəti aktuallaşır ki, bu da inteqrativ kulturoloji biliklərlə bağlıdır. Sahibkarlıq fəaliyyəti haqqında ilkin anlayış və terminologiya, eləcə də, ən ümumi qanunauyğunluqlar haqda biliklərə yiyələnmə bazar iqtisadiyyatı dövründə gənclərə gərəkli ola

biləcək əməli vərdişlərin daha şürurlu şəkildə formalaşdırılmasına və sahibkarlıq mədəniyyətinə yiyələnməyə yardım edir.

**IV fəsil - Incəsənət fənlərinin inteqrativ tədrisi zamani konseptual ümumiləşdirmələrin yollari** adlanır və üç yarımfəsli əhatə edir:

- Bədii əsərlərin təhlili zamanı nəzəri anlayişların mənimsədilməsi;
- İnteqrativ incəsənət dərslərinin təşkili prinsipləri;
- Fərdin və sosial institutların inteqrativ bədii fəaliyyəti zamanı mədəni dəyərlərin formalaşdırılması.

**IV fəslin "Bədii əsərlərin təhlili zamanı nəzəri anlayışların mənimsədilməsi"** adlı birinci yarımfəsildə müxtəlif incəsənət növlərinin bir-biri ilə əlaqəli şəkildə, konkret biliklər vasitəsi ilə öyrədilməsinin şagirdlərin yaradıcı qüvvələrinin təmin edilməsindəki əhəmiyyəti vurğulanır. Belə ki, şagirdlərin estetik tərbiyəsi biliklər məcmuundan ibarət olaraq, elementar savada və ya hər hansı bir təsviri sənət, xoreoqrafik və musiqi fəaliyyətinə yiyələnməkdən ibarət deyil, bu - emosional keyfiyyətlərin aşkarlanması və mənəvi kamilliyə can atmaqdır. İncəsənət əsərinin bədii - pedaqoji təhlilindən əvvəl məzmunun qavranılması üzərində iş aparılır. Həmin işlər bədii əsərlərin müştərək mənimsənilməsinə hazırlıq mərhələsi və ya istiqamətlənmə-motivasiya kimi qəbul olunmalıdır. İlkin olaraq demək lazımdır ki, bədii reallıqda şərtilik var. Bədii reallıq həyati reallıqdan fərqli olaraq, müəyyən olunmuş məqsəd üçün yaradılır və bədii əsərin fuksiyaları ilə müəyyən olunur. Bədii reallığı həyati reallıqdan fərqləndirən əsas cəhət onun bədii kontekstdən ayrı heç bir məna və mahiyyət daşımaması və mətnin kontekstində onun mövcudluğunun mütləq və zəruri olmasındadır. Müasir elmdə incəsənətin sinif, ailə, növ və onların digər alt növlərinə bölünmə, eləcə də, cins və janr əlamətinə görə diferensiallaşma sistemi yaranmışdır. Maddi mövcudluq baxımından incəsənətin aşağıdakı sahələri var: məkan mahiyyətli incəsənət növləri (təsviri sənət, qrafika, heykəltaraşlıq, memarlıq və tətbiqi incəsənət); zaman mahiyyətli incəsənət növləri (səs və söz yaradıcılığı); məkan-zaman mahiyyətli incəsənət növləri (aktyorluq və rəqs). Məkani incəsənət sahələri statik, zamani incəsənət növləri prosesual-dinamik,

zaman-məkani incəsənət isə həm zaman, həm də məkan daxilində baş verir. Məkan, zaman və məkan-zaman anlayışları incəsənət ailəsini ifadə edir. Onların hər birində incəsənət növləri və alt növlər (komponentlər) mövcuddur. Belə ki, rəngkarlıq, qrafika və heykəltaraşlıq incəsənət növünün mahiyyətidir və ya növüdür, rəsm və qravür – qrafikanın alt növləridir, karandaş, tuş və kömürlə rəsm – rəsmin alt növləridir, ksiloqrafiya, afort, linoqrafiya və akvatinta – qravürün alt növləridir. Məkan, zaman və məkan-zaman mahiyyətli incəsənətin obraz işarələrinin quruluşu müxtəlif vasitələrlə verilir: təsviri və qeyri-təsviri. Konkret bədii əsərlərdə ifadə vasitərləri bir-biri ilə sıx bağlı olur. Adi bir lirik miniatür əsərə dramatik inkişaf verməklə, onun hüdudlarını genişləndirmək mümkün olduğu kimi, nəqli-epik janr olan balladaya da lirik obraz və dramatik inkişaf xarakteri əlavə etməklə, həmin bədii əsəri mürəkkəbləşdirmək mümkündür. Janrlar mövzu və məzmunundan asılı olaraq - tarixi, fantastik, macəra, psixoloji ola bilər. Janrların mövzu ilə bağlılığı bədii əsərin məzmun və formasını müəyyən edir. Ideya obyektiv reallığın düşüncədə əks olunma forması olmaqla, dünyanın dəyişdirilməsinə yönələn praktik fəaliyyətin perspektivlərinə doğru istiqamətlənən idrak prosesidir. Məzmunla forma vəhdətdə və bir-biri ilə əlaqədədir. Məzmun formaya nisbətən daha çevik və dinamikdir, forma isə predmetin sabit əlaqələr sistemini əhatə edir. Struktur - bütöv bir hadisə, predmet və prosesin ayrı-ayrı element, tərəf və hissələri arasındakı sabit əlaqə və qarşılıqlı təsirlərdir. Struktur obyektin sabit əlaqələrinin məcmusu kimi, onun bütövlüyünü və özünə uyğunluğunu təmin edir, başqa sözlə, müxtəlif xarici və daxili dəyişmələr zamanı əsas xüsusiyyətlərini saxlayır. Obraz çoxmənalı anlayış olaraq, yazıçı, rəssam, artistin yaratdığı, onun daxili gözü ilə gördüyü, təsəvvüründə canlandırdığı xarakter və ya bədii tipin xarici görünüşü və simasıdır. Fəlsəfədə obraz subyektin idrak fəaliyyəti olaraq, obyektiv hadisələrin şüurda əks olunmasıdır. Obrazlarla dərk etmənin hissi pilləsində təfəkkür səviyyəli duyğular – anlayış, mülahizə və əqli ümumiləşdirmələr yaranır ki, bu da öz mənbəyinə görə obyektiv, mövcudluq vasitəsinə, yəni formasına görə isə, subyektivdir. Obrazın maddiləşmiş forması praktik fəaliyyət, dil, müxtəlif işarə modelləridir. Memarlıq və təsviri sənət əsərlərinin kom-

pozisiyalarında qızıl təmas, kəsişmə nöqtəsi prinsipinin mühüm əhəmiyyəti vardır. Bu elə bir harmonik proporsiyadır ki, burada birinci hissənin ikinciyə nisbəti, ikincinin birinciyə nisbətinə bərabərdir. Qızıl təmas və ya kəsişmə nöqtəsi memarlıq ansamblının və ya təsvirin mərkəzi hesab olunur.

**IV fəslin "İnteqrativ incəsənət dərslərinin təşkili prinsipləri"** adlı **ikinci yarımfəsli** Kurrikulum sənədlərində məktəblilərin bacarıqlarına verilən tələblərin yeni kulturoloji mövqedən nəzərdən keçirilməsinin bədii mətnin məzmunu üzərində işin yeni tərzdə aparılmasını tələb etməsi tezisinin araşdırılmasına həsr edilmişdir. Bu zaman aşağıdakı məqamların əsas götürülməsinə üstünlük verilir: 1) Hadisələr bir-biri ilə əlaqədədir və onların bütövlüyü dialektikanın kateqoriyasıdır. 2) İncəsənət növlərinin qarşılıqlı təsiri şagirdin bədii-yaradıcı fəaliyyətinin əsasıdır. 3) Həyat və incəsənətin vəhdəti yaradıcı prosesin məzmununu ifadə edir. Yarradıcı dərslərin əsas 8 prinsipdən ibarət olması təsvir olunur, ətraflı nəzərdən keçirilir, bədii improvizənin əhəmiyyəti vurğulanır və eksperimental nəticələr müqayisə edilir. Ətraf aləmin və incəsənətin estetik dərk edilməsi qabiliyyətinin inkişafı insanın hiss, emosiya və həyat reallıqlarının məzmununa elə etik və estetik dəyişdirici təsir göstərir ki, bu zaman mənəvi ünsiyyətin xüsusi forması yaranır. İncəsənət əsərlərindən birgə həyəcanlanma və onunla əlaqədar olan birgə yaradıcılıq şagirdlərin müstəqil bədii yaradıcılığının əsası kimi çıxış edir. Buna görə də, şagirdin hisslərinin düzgün tərbiyə edilməsi bədii cəhətdən inkişaf etmiş yaradıcı şəxsiyyətin formalaşdırılması üçün mühüm şərtdir.

1. Obrazlı təfəkkürün formalaşdırılması varlığın bədii şəkildə mənimsənilməsinin mühüm faktorudur. Ətraf aləmin estetik baxımdan çoxölçülü olmasını məhz obrazlı təfəkkür vasitəsi ilə dərk etmək mümkündür. Obrazlı təfəkkür ətraf aləmin çoxölçülülüyünü optimallaşdırır, həyat problemlərinin qeyri-ənənəvi yollarla həll edilməsini, yenilik üçün yaradıcı axtarışı stimullaşdırır.

2. Dərslərdə yaradıcı, maraqlı, sərbəst şəraitin yaradılması şagirdi kəşf prosesinə istiqamətləndirən mühüm psixoloji faktor kimi çıxış edir. Yaradıcı qabiliyyətlər yalnız yaradıcı mühitdə inkişaf etdirilə bilər. Burada təkrar və təqlidə yox, sərbəst təşəbbüskarlıq,

müstəqillik, yeni və orijinal bir şeyin yaradılmasına istiqamətlənmənin olması nəzərdə tutulur. Yaradıcılığa meyllilik hissini inkişaf etdirmək üçün axtarış prosesinə dəyər münasibəti bəsləmək vacibdir. Şagird öz yaradıcılığı ilə başqalarını ünsiyyətə cəlb etmək zərurətini duymalıdır.

3. Ətraf aləmə özünəməxsus bədii münasibət formalaşdırmaq üçün sərbəst improvizə vərdişlərinə yiyələnmək vacibdir. Obrazlı təfəkkür improvizə yaradıcılığı əsasında inkişaf edir. İmprovizə, yəni sərbəst yaradıcı işləmələr, sonda yaradıcı fəaliyyətlə nəticələnən məhsuldar özünüifadə formasıdır.

4. Bədii sintez qabiliyyətlərinin optimallaşdırılması ətraf aləmin estetik çoxcəhətliliyinin mənimsənilməsinin əsas şərtidir. Məlumdur ki, obrazlı təfəkkür yaradıcı özünüifadədir, o, improvizə xarakterlidir və sinkretik səciyyə daşıyır. Məhz bədii sintez prinsipi yaradıcı fəaliyyətin mühüm şərtlərindən biri kimi çıxış edir və onun əsasında şagirdə bədii obrazın çoxölçülülüyünü başa salmaq olar.

5. Bədii ümumiləşdirmə vərdişlərinin inkişafı incəsənətin bütöv mənimsənilməsinin əsası kimi çıxış edir. Bədii ümumiləşdirmə incəsənət növlərinin kompleks təsirinin başlıca amili olmaqla, onun müxtəlif təzahürlərinin bütöv mənimsənilmə mexanizminin mühüm psixoloji faktorudur. Bu prinsip ümumiləşdirmənin və xüsusilə də bədii ümumiləşdirmənin təbiəti, genezisi və növləri haqqında ideyalara istinad edir. Hadisələrin ümumi və xüsusi cəhətləri üzrə birləşdirilməsi vasitəsi olan ümumiləşdirmə idrak və yaradıcılığın bütün növləri üçün universaldır. Bədii ümumiləşdirmənin spesifikliyi ondadır ki, onun üçün təkanverici qüvvə emosiyaların oyadıcı qüvvəsidir. Öz növbəsində emosiyalar təxəyyülün fəaliyyətini fəallaşdırır. Bədii ümumiləşdirmə keçmiş affektiv qalıqların emosional sintezi əsasında həyata keçirilir.

6. Estetik situasiyaların yaradılması ətraf aləm haqqında emosional-yaradıcı həyəcanın yaradılması üçün mühüm şərtdir. İnteqrativ dərslərdə mənəvi-estetik situasiya estetik həyati problemlərin məqsədyönlü şəkildə qoyulması nəticəsində əldə edilir. Bu zaman şagirdlər hadisələrin və ətraf aləmin predmetlərinin estetik dəyərini, eləcə də insanın ruhi dəyərini mənimsəyirlər. Qeyd etmək lazımdır ki, ətraf aləmin hadisələri estetik situasiya kimi təqdim edilərkən,

bədii məzmuna malik olur. Bu zaman dərslər ətraf aləmə emosional-qiymətləndirici münasibət bəsləməyə, praktik fəaliyyət göstərməyə imkan verir.

7. Şagirdlərdə öz yaradıcı təcrübələrini reallaqşdırmaq və ətraf aləmin dərk edilməsi zamanı mənəvi meyarların yaradılması üçün bədii biliklərin əsasını formalaşdırmaq. Şagirdlərdə bədii biliklərin əsaslarının inkişaf etdirilməsi estetik baxımdan yaşanmış hadisələrin bədii şəkildə dərk edilməsi yaradıcı inteqrativ dərslərin mühüm prinsiplərindən biridir. Əsas estetik anlayış və kateqoriyaların dərk edilməsi vasitəsi ilə fakt və hadisələrin bədii dərk edilməsi estetik şüurun inkişafı və ətrafa estetik münasibət bəslənməsinin tərbiyə edilməsində mühüm amildir. Məhz onların köməyi ilə incəsənəti "ətraf aləmin estetik hadisəsi" kimi təfsir etməyə imkan verir. Bu, bütün incəsənət növləri üçün əsas rolunu oynayır.

Yaradıcı inteqrativ incəsənət dərslərinin qurulması üçün səciyyələndirdiyimiz bu prinsiplər yaradıcı baxımdan çoxcəhətli, ictimai baxımdan müstəqil şəxsiyyətin formalaşdırılması işinə xidmət edir.

İnteqrativ incəsənət dərslərində yaradıcı tapşırıqları qurmağın müxtəlif üsulları vardır. Yaradıcı tapşırıqlar sistemini iki müstəvidə proeksiyalaşdırmaq məqsədəuyğundur: hər zaman həyati nümunələrə müraciət etmək, digər tərəfdən isə, şagirdlərə tanış hadisə, situasiya və obrazlar olan incəsənət əsərlərinə müraciət etmək. Yuxarıda adları çəkilən yaradıcı prinsiplərdə irəli sürülən tapşırıq tipləri aşağıdakılar ola bilər: I prinsip üzrə - "Eyni süjetin müxtəlif obrazlar vasitəsi ilə ifadə edilməsinin sintezi", "Müxtəlif incəsənət növlərinə aid incəsənət əsərlərindən ibarət kolleksiya tərtibi", "Eyni mövzulu incəsənət əsərlərində müxtəlif olan cəhətlərin tapılması", " Rollu oyun prinsipi əsasında improvizə", "Eyni süjetin müxtəlif bədii həllinin müqayisəsi"; II prinsip üzrə - "Səslərin rənglərlə təsvir edilməsi", "Musiqinin qrafik təsvir edilməsi", "Bədii obrazın incəsənət növündən digərinə köçürülməsi", "Baxmaq və görmək, qulaq asmaq və eşitmək vərdişlərinin formalaşdırılması", "Bədii obrazı sözlə təsvir etmək", "Musiqili rəsm və şerin melodizasiyası", "Detalların dəqiqləşdirilməsi üzrə improvizə", "Fantastik fərziyyələrin irəli sürülməsi", "Hadisənin verilən istiqamətdə dəyişdirilməsi"; III

prinsip üzrə - "Tanış olmayan bədii əsərin bir hissəsinə görə onu tamamlamaq", "Dəyişən şəraitdə qəhrəmanın davranışını təsəvvür etmək", "Hər hansı bir bədii əsərin kollektiv şəkildə yaradılması" və s.

**IV fəslin "Fərdin və sosial institutların inteqrativ bədii fəaliyyəti zamanı mədəni dəyərlərin formalaşdırılması"** adlı **üçüncü yarımfəslidə** kulturologiyada mədəni dəyərlərin sisteminin aşağıdakı kimi müəyyənləşdirilməsi göstərilir: a) sosioloji; b) sinfi; c) lokal; d) fərdi. Dissertasiyada müxtəlif xalqların mədəniyyətlərinin ahəngdarlığı və harmonizasiyası bacarığının kiçik məktəb yaş dövründən tərbiyə edilməsinin vacibliyi və bu baxımdan, islam əxlaqının mütərəqqi cəhətlərinin əhəmiyyəti xüsusi qeyd edilir. Orta məktəb səviyyəsində şagirdlərdə dünya mədəniyyəti, şüur mədəniyyəti, etik mədəniyyət, bədii mədəniyyət, ekoloji mədəniyyət, şəxsiyyətlərarası münasibət, millətlərarası münasibət, dinlərarası münasibətlər mədəniyyəti inteqrativ şəkildə aşılandıqca onlarda humanist dünyagörüş və vətəndaş cəmiyyəti dəyərləri formalaşır. Humanist dünyagörüş və vətəndaş cəmiyyəti dəyərləri isə inkişafın inteqrativ bəşəri və milli təcrübəsinin inteqrativ inkişafını stimullaşdırır. İncəsənət əsaslı fənlərin inteqrativ tədrisi prosesində islami dəyərlərin formalaşdırılması daxilində Azərbaycan muğamlarının estetikası məsələləri, muğam tarixi üzrə biliklərin digər incəsənət sahələri ilə birgə aşılanması bir tərəfdən muğam tarixinin və nəzəriyyəsinin öyrənilməsi, miniatür təsviri sənət əsərlərinin öyrənilməsi sahəsindəki son elmi nailiyyətlərin məktəb divarları arasına gətirilərək populyarlaşmasına, digər tərəfdən isə şagirdlərdə milli qürur, milli vətənpərvərlik, vətənsevərlik tərbiyəsinə xidmət edərək, milli-mənəvi dəyərlərin formalaşdırılmasına müsbət təsir göstərməsi qeyd edilir. Mədəniyyətlərarası ahəngdarlıq bacarığı yalnız incəsənət əsaslı dərslərin inteqrativ tədrisi prosesində daha effektiv əldə edilə bilər. Bu, son nəticədə sivilizasiyaların dialoqu və əməkdaşlığı yolu ilə bəşəriyyətin ümumi gələcəyinin uğurunu təmin edən proseslərlə nəticələnməlidir. O, insanda yüksək intellektual və etik mədəniyyət, gələcəyi düzgün görmə qabiliyyəti formalaşdıraraq, şəxsiyyətlər, insanlar və xalqlar arasındakı münasibətlərdə yarana biləcək dağıdıcı prosesləri və ziddiyyətləri tənzimləmə qabiliyyətinin yaranmasına yardım edir. İslam əxlaqı özündən əvvəl yaranmış

dinlərin ən mütərəqqi cəhətlərini özündə birləşdirdiyinə görə, o, bir çox xalqların, eləcə də Azərbaycan xalqının mənəvi dünyasına böyük təsir göstərmişdir. İslam dəyərləri ilə tərbiyə olunan bir çox nəhəng şəxsiyyətlər nəsillərin mənəvi aləminə tərbiyəvi təsir edə biləcək elə incəsənət əsərləri yaratmışlar ki, onlar bəşəri mahiyyət daşımış, digər dinlərə mənsub xalqların da mədəniyyətinə öz müsbət təsirini göstərmişdir. Mədəniyyət baxımından, Ərəb xilafəti dövrü nəhəng memarlıq abidələri, zəngin tikililər, monumental saraylar, rəssamlıq əsərləri və eləcə də musiqi incəsənəti ilə əlamətdardır. Milli-mənəvi dəyərlərin formalaşdırılması üçün muğam sənətindən istifadə etmək məqsədi ilə azərbaycanlı alimlərin yaratdıqları nəzəri əsərlərin mühüm əhəmiyyəti vardır. İnteqrativ incəsənət dərslərində mənəvi dəyərlərin formalaşdırılması "İncəsənət və həyat" probleminin araşdırılması prizmasından həll edilməlidir. Həmin dərslərdə istifadə olunan estetik material, müəllimin şərhi əsasında, şagirdləri incəsənətin həyatın bir hissəsi olduğuna inandırmalıdır. Belə ki, həyat hadisələrini obrazlı mənimsəmədən insan həyat hadisələrinə fəal münasibət bəsləyə bilməz. Şagird obrazlı təfəkkürün fəaliyyəti mexanizmlərinə yiyələndikcə, həyat hadisələrinin məntiqi və qanunauyğunluqları, ümumi əlaqələri və bir-birini qarşılıqlı şərtləndirdiklərini dərk edə bilər. Şagirdlərdə mədəni dəyərlərin formalaşdırılması yalnız müxtəlif sosial təşkilatların birgə fəaliyyəti nəticəsində mümkündür, çünki vətəndaş tərbiyəsi kimi mühüm dövlət əhəmiyyətli məsələnin həlli yalnız kompleks şəkildə həyata keçirilən və həlli mümkün olan problemdir. Sosial institutların imkanlarının inteqrasiyası təsir sahələrinin bölünməsi və fənlərin əlaqəsinə əsaslanır.

Mədəni dəyərlərlərin formalaşdırılması və yaradıcı, fəal şəxsiyyətin yetişdirilməsi kütləvi mədəniyyətin fəaliyyət sahələri və əsas institutları ilə bağlıdır. Bunlardan biri - "Uşaq submədəniyyəti" sənayesidir ki, cəmiyyətdə rəsmi təbliğ edilən baza dəyər anlayışlarının əsasları və mədəniyyətin standart dünyagörüş normalarının uşaqların şüuruna daxil edilməsindən ibarət olan, uşaq tərbiyəsinin universallaşdırılma sistemidir. Bura aşağıdaklar daxildir: uşaq ədəbiyyatı və incəsənəti; uşaq təşkilatları, klub və düşərgələr; kollektiv tərbiyə texnologiyaları; istehsal olunan oyun və oyuncaqlar və s. Hal-hazırda məktəblə məktəbdənkənar təşkilatların əlaqələrin növü,

strukturu, mahiyyəti xarakterinin kifayət qədər tədqiq olunmaması əlaqələrin zəifliyi problemini yaratmışdır. Müxtəlif sosial strukturların qarşılıqlı əlaqə quruluşu aşağıdakı dörd funksiyanı yerinə yetirir: kommunikativ, elmi-maarifləndirici, təlim-tərbiyəvi və təbliğat-təşviqat. Hər bir funksiya xüsusi informasiya əlaqələrində obyekt-subyekt münasibətlərinin ayrılmasını tələb edir. Bu idarələrin hər biri həm obyekt, həm də subyekt rolunda çıxış edərək, estetik tərbiyə prosesində informasiyanı ötürən – alan və verən qismində iştirak edir. Qarşılıqlı təsir prosesinin bütün mərhələlərində fərd, yəni şagird ən mühüm faktor kimi çıxış edir. Deməli şagird informasiya sahəsinin iştirakçısı kimi qəbul edilməlidir. Yerinə yetirdiyi konkret funksiya ilə əlaqədar olaraq, həmin idarələrin diferensiasiyası mövcuddur. Mədəni-pedaqoji komplekslər öz məzmununa görə inteqrasiya prosesində üç cür əlaqə tipi ilə bir-birini tamamlayır: şaquli, üfüqi, hərtərəfli. Şaquli əlaqələr sisteminə - ailə, məktəb, gənclər təşkilatı, elmi-texniki cəmiyyət və yaradıcı ittifaqlar, əmək kollektivləri, məktəbdənkənar idarələr və s. aiddir. Üfüqi əlaqələr sisteminə məktəblə mədəni-pedaqoji idarələrin tədbirlər silsiləsi, ardıcıl yaradıcı tədbirlər sistemi aiddir. Şagirdlərin bədii tədbirlərlə əhatə olunması kifayət qədər sistemsiz səciyyə daşıyır, belə ki, çox zaman muzey və kinoteatrlara ekskursiyaların mövzusu tədris materialı ilə əlaqədar olmur, incəsənət hadisəsinin dərk olunmaasını təmin etmir. Şagirdlərin estetik tərbiyəsi üzrə birgə işin kompleks planlaşdırılmasıhər bir məktəbdənkənar müəssisə qarşısında yalnöz elmi şəkildə əsaslandırılmış məqsəd və vəzifələr, həm də müxtəlif sosial institutların qarşılıqlı əlaqəsinin məzmunlu bir əlaqələndirici sxeminin hazırlanmasını tələb edir.

**Nəticə hissədə** - aparılmış eksperimentlərdən alınan nəticələrə əsasən aşağıdakı təkliflər irəli sürülmüşdür:

- orta ümumtəhsil məktəblərində inteqrativ incəsənət fənninin tədrisinin nəzəri və praktik problemləri əsas götürülərək musiqi, təsviri incəsənət və texnologiya fənlərini birləşdirmək;

- incəsənət əsərlərinin inteqrativ mənimsədlməsinin şagirdlərin yaradıcı şəxsiyyət kimi formalaşmasına müsbət təsirini nəzərə alaraq, təlimin məzmununa "tələb-təklif" modeli üzrə yanaşmaq, fənnin məzmununu problemə uyğun "şəbəkəli" planlaşdırmaq;

- ümumtəhsil məktəblərində inteqrativ incəsənət fənninin tədrisində bədii obrazlardan tələbatların reallaşdırılması bacarığının formalaşdırılması üçün istifadə etmək, biliklərlə əməliyyat aparmağı planlaşdırmaq modeli həyata keçirmək;

- universal fəaliyyət modeli olan - tələbatların müəyyənləşdirilməsi, məqsədin aydınlaşdırılması, planlaşdırma, reallaşdırma və qiymətləndirmə modelindən təlim keyfiyyətinin yüksəldilməsi üçün istifadə etmək;

- inteqrativ incəsənət fəninin tədrisi üzrə sinifdənxaric işlərin aparılması ilə əlaqədar sistemin məzmunundan məktəblinin həyati bacarıqlarının formalaşması üçün istifadə etmək.

- təhsil yükü ilə şagirdlərin mənimsəmə imkanları arasında tarazlığın pozulmasına yol verməmək məqsədi ilə incəsənət əsaslı fənlərin tədrisini həftə ərzində bir dəfə təşkil etmək və metodik baxımdan məntiqi təfəkkür texnologiyalarının inkişafına yönəltmək;

- incəsənət fənlərinin inteqrativ tədrisini həyata keçirəcək müəllimlərin ixtisasartırmasının təşkili, ixtisasartırmanın məzmununun tərtibi, müəllimlərin incəsənət əsaslı fənlərin inteqrativ tədrisi texnologiyasına yiyələnmə mexanizmi və həmin fəaliyyətin keyfiyyətinə metodik nəzarəti təmin etmək.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. İncəsənət fənlərinin inteqrativ tədrisinin didaktik əsasları, Pedaqoji Universitet Xəbərləri, Pedaqoji-psixoloji elmlər bölməsi, 2011, №3, səh. 250-253.
2. Yüksək ixtisaslı sərhədçi zabitlərin hazırlanması dövlət kadr siyasətinin tərkib hissəsidir, DİA, Dövlət idarəçiliyi - nəzəriyyə və təcrübə, 2011 №2 (34), səh. 231-234.
3. Bədii qavrama reallıqların estetik kateqoriyalarla ifadə olunmasını tələb edir, BDU, Pedaqogika elminin inkişafında yeni mərhələ, Beynəlxalq elmi-praktik konfransın materialları, 28-29 iyun 2011, səh 551-556.
4. İncəsənət fənlərinin inteqrativ tədrisinin psixoloji əsasları, Azərbaycan Dillər Universiteti, Elmi xəbərlər, 2011, №2, səh. 283-287.
5. "Əxlaqi Nasiri"-dən kulturologiyaya, AR TPİ-nin Elmi əsərləri, 2007, №4, səh.175-178.
6. Культурологическое исследование при интеграции предметов искусства, Azərbaycan Dillər Universiteti, 2011, №3, səh. 362-365.
7. İnteqrativ təlim zamanı yaradıcı fəaliyyət, Bakı Slavyan Universitetinin elmi əsərləri, 2011, №1, səh. 137-142.
8. Ibtidai təhsil pilləsində incəsənət fənlərini inteqrativ tədrisi, Pedaqoji uiversitet xəbərləri, 2011, №4, səh. 283-285.
9. Əsas təhsil pilləsində incəsənət fənlərinin inteqrativ tədrisi üzrə işin imkan və yolları, Pedaqoji Universitet xəbərləri, 2011, №4, səh.302-305.
10. Kulturoloji təfəkkür – yeni imkanları görməkdir, «Simürğ» Beynəlxalq kulturoloji jurnal, 2011, №3, səh.70-72.
11. Культурологическое мышление - это видение новых возможностей, Вопросы гуманитарных наук, 2011, №6, стр. 251-253 (Moskva).
12. Стимулисање културолошког мишљења у процесу интеграције уметничких предмета, Политичка ревија, Belqrad (Serbiya): 2012, №1, стр. 373- 388.

13. Ali məktəblərə qəbul zamanı kulturoloji testlərdən istifadə zəruridir, Pedaqoji Universitet xəbərləri, 2011, №5, səh. 293-295.

14. Пути и возможности построения работы по интегративному обучению предметам искусства в пределах основной образовательной ступени, Этносоциум и межнациональная культура, Москва: 2012, №1 (43) 1, стр. 27-31.

15. Культурологические знания формируют верные представления Вестник МГЛУ, Москва: МГЛУ, 2012, Спецвыпуск 627.

16. İncəsənət fənlərinin inteqrativ tədrisi üzrə ixtisasartırmanın məzmunu, Mədəniyyət dünyası (elmi-nəzəri məcmuə), Bakı: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2012, XXIII, 18-21.

17. Sosial institutların inteqrativ bədii fəaliyyəti, Elmi əsərlər, Bakı: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, 2012, №13, s.16-20.

18. Kulturoloji tədqiqat və kulturoloji təfəkkür ənənələri, Elmi əsərlər, Bakı: Azərbaycan Respubllikası Təhsil Problemləri İnstitutu, 2012, №2, s. 254-56.

19. Kütləvi bədii tərbiyə tarixinə bir nəzər, Pedaqoji Universitet Xəbərləri, Bakı: Azərbaycan Dövlət Pedaqoji Universiteti, 2012, №1, 315-317.

20. Inteqrativ kurrikulum konseptual ümumiləşdirmələr üçün geniş imkanlar açır, AR Mədəniyyət və turizm nazirliyi, Müasir mədəniyyətşünaslıq (elmi, metodiki, publisistik jurnal), №2 (10), Bakı: 2012, 57-59.

21. İncəsənət fənnlərinin inteqrasiyası və kurtuloji metodologiya, Pedaqoji Universitet Xəbərləri, Bakı: Azərbaycan Dövlət Pedaqoji Universiteti, 2012, №2, s.193-196.

22. İnteqrativ tədris və inteqraktiv təlim, AR TPİ-nin Elmi əsərləri, 2012, №3, s. 102-104

23. Культурологическое мышление – это видение новых возможностей, "İnnovasiya, təhsilin keyfiyyəti və inkişaf" II beynəlxalq elmi konfransın materialları, Bakı 7-9 iyun 2012, s. 196-199

24. Глобализација и хуманистички идентитет, «Национални идентитет и религија» Научни скуп, Овај Зборник је настао

као резултат рада на пројекту «Демократски и национални капацитети политичких ституција Сербије у процессу међународних интеграција» (бр.179009), које финансира Министрство просвете, науке и технолошког развоја Републике Србије. Институт за политичке студије Београд,2014,s.65-74

25. Интеграция и национальная идентичность, (Дез) Интеграција држава и идентитет, Зборник радова са међународног научног скупа одржаног у Београду 28-29. Априла 2014, године, 237-246

26. THOMSON REUTERS, İmpakt Faktor, CULTUROLOGICAL METHODOLOGY IS A CIENTIFIC BASIS OF INTEGRATIVE TEACHING METHODS, Scientifie Khyber ISSN:1017-3471, (2014) Volume 4(3):PP 215-228.

27. Ümumi və hərbi pedaqogika, dərs vəsaiti, Bakı: DSX Akademiyası, 2010, 164s.

28. Ümumi və hərbi pedaqogika, proqram, Bakı: DSX Akademiyası, 2010, 12s.

29. Mədəniyyətşünaslıq, proqram, Bakı:2010, 20s.

30. Hərb mədəniyyəti, dərs vəsaiti, Bakı: DSX Akademiyası, 2015, 120s.

**Mehdiyeva Vafa Huseyn gizi.**

## Cultural apple on methodology apply on integrative teaching of art subjects

## RESUME

The United Nations Development Programme shows that the most important of the indicators of Human Development is the people's education level, and being the base of culture, education depends on the efficiency of the country's culture policy. Education is of strategical importance for the development of culture. A high-level culture also covers the concepts of honesty and humanist ethics which contribute the mental and emotional perfection of personality. The educational process is the main part of students' life activity. The student's education, its efficient organization, intensity, productivity and efficiency provide the future of the society.

Chapter I of the dissertation entitled "Scientific-theoretical principles of Integrative teaching of Art related subjects from cutural point of view" deals with the essence of Cultural methodology and intergrative curriculum, didactic and psychological principles of integrative teaching of art related subjects. Culture Study is a science about human's creative life. The students' creativity is a process of learning on disciplines. The research work illustrates the opportunities providing the conversion of teaching process to value through the application of cultural methodology to learning process and the composition of training with creativity.

Chapter II is entitled "The problems of content from the point of view of the theme and the situation in practice". Here we explain one of the main goals of content reforms in the Azerbaijan education – such cultural problems as the adaptation of the academic load to physiological capacity of students, the prevention of repetitions while teaching the same conception under several fields of science, the reduce of academic hour spent on teaching surplus material through the integration of subjects, and the provision of teaching efficiency. We also carried out cultural analysis of sociocultural results of the innovative teaching methods, methodical literature, program and textbooks.

Chapter III is entitled "The possibilities and ways of integrative teaching of art related subjects", and in this chapter the integration mechanisms have been worked out for all levels of education from cultural point of view.

Chapter IV is entitled "The art of mastering the theoretical concepts while the analysis of the literary works". This chapter descibes the contents

of the theoretical concepts, the organizational principles and methods of integrative lessons as well as the formation of cultural values during the integrative literary performance of the social institutions.

The study presents its results and summaries in specific recommendations. More precisely, there occurred the necessity in the use of the cultural model of the universal cultural activity: demand - planning - realization – evaluation in increasing the quality of education.

**В.Г.Мехтиева**

# Применение культурологической методологии в интегративном преподавании предметов искусства

## РЕЗЮМЕ

В программе развития, принятой Организацией Объединённых Наций, среди показателей, определяющих уровень развития человека, самым важным назван образовательный уровень народа и выявлена прямая зависимость образования, как основы культуры человека, от эффективности политики, проводимой государством в области культуры. Образование имеет стратегическое значение для развития культуры в целом. Высокая культура способствует интеллектуально-эмоциональному гармоничному формированию личности, руководствующейся в своих поступках такими этическими понятиями, как совесть и гуманность. Образовательный процесс, в который вовлечены ученики, есть неотъемлемая, самая значимая часть их жизнедеятельности. Верно организованный процесс обучения учеников, его интенсивность, плодотворность и практическая целесообразность - гарант и залог успешного развития общества в будущем.

В первом разделе диссертации "Научно-теоретические основы культурологического подхода к интегративному преподаванию предметов искусства" исследуются дидактические и психологические основы интегративного обучения предметам искусства, сущность интегративного курикулума и культурологической методологии. Культурология - наука, изучающая творческую жизнедеятельность человека. Творчество учеников - это процесс усвоения знаний по предметам. В исследовании анализируются выявленные возможности внедрения в процесс обучения культурологической методологии и возможности синтезирования элементов творчества с элементами обучения в образоватеольном процессе.

Второй раздел диссертации "Состояние учебной практики и проблемы содержания с точки зрения тематики учебного материала" посвящён исследованию практических мер, связанных с реформированием содержания образования в Азербайджане, направленных на достижение главной цели - приведение в соответствие объёма предлагаемого к усвоению учебного материала с физическими кондициями обучаемых. К мерам подобного характера автор относит: исключение возможных повторов отдельных тем, освящаемых разными учебными дисциплинами, но в границах единой концепции, сокращение учебного времени в процессе интегративного обучения

предметам, анализ культурологических проблем с целью повышения эффективности учебного процесса. В этом разделе анализируются социокультурологические результаты исследования инновативных методов обучения, методическая литература по преподаванию предметов искусства, программы и учебники.

В третьем разделе диссертации "Пути и возможности интегративного обучения предметам искусства" с культурологической точки зрения определены пути и методы применения усвоенных учеником локальных знаний в повседневной жизненной практике.

В четвёртом разделе диссертации "Формирование у учащихся теоретических знаний в процессе анализа художественных произведений" исследуются принципы и методы организации интегративных уроков, анализируется содержание теоретических понятий и раскрывается формирование культурных ценностей в процессе интегративной художественной деятельности различных социальных институтов.

Выводы и научные обобщения проведённого исследования нашли отражение в конкретных рекомендациях и предложениях. В проведённом исследовании утверждается целесообразность использования универсальной формулы культурологической деятельности: потребность - цель - планирование - реализация - оценивание, а также необходимость применения учащимися знаний, полученных в результате интегративного обучения, в повседневной жизненной практике.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**УНИВЕРСИТЕТ КУЛЬТУРЫ И ИСКУССТВА**

***На правах рукописи***

**Вафа Гусейн гызы Мехтиева**

# ПРИМЕНЕНИЕ КУЛЬТУРОЛОГИЧЕСКОЙ МЕТОДОЛОГИИ В ИНТЕГРАТИВНОМ ПРЕПОДАВАНИИ ПРЕДМЕТОВ ИСКУССТВА

**6219.01 – Культурология и общие вопросы культурологии**

**АВТОРЕФЕРАТ**

**Диссертация на соискание учёной степени**
**доктора искусствоведения**

**БАКУ - 2015**